# Xalq qəzeti

Xalqın qəzeti!

№ 108 (30512) 24 may 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


“Xudafərin” və “Qız Qalası”– Araz üstündə yeni dostluq və əməkdaşlıq körpüsü



Səhifə ⇨ 8

# Azərbaycan – Tacikistan münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib

## Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri

### Rəsmi qarşılanma mərasimi





**Azərbaycan Respublikasına dövlət səfərinə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun mayın 23-də rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Tacikistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Prezidenti Emoməli Rəhmonu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Tacikistan Prezidentinə raport verdi.

Prezident İlham Əliyev və Prezident Emoməli Rəhmon fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Tacikistan Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Tacikistan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Tacikistan Prezidentinə, Tacikistan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.



# Nikol Paşinyanın Aleksandr Lukaşenko qınağı

## Yaxud erməni baş nazirin 44 günlük müharibə ilə bağlı ittihamları

**Belarus Prezidenti Aleksandr Lukaşenkonun ölkəmizə səfəri çərçivəsində mayın 16-da Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdə səsləndirdiyi fikirlərin Ermənistanda böyük əks-səda doğurduğu məlumdur. İrəvandakı revanşist-şovinist kəsim ilə yanaşı, iqtidar təmsilçilərinin və onlara yaxın ekspert cameəsinin Belarus liderini hədəfə götürdüyü də həmçinin. Belələrinin sırasına baş nazir Nikol Paşinyan da qoşuldu. Nikolun nə dediklərinə diqqət yetirəcəyik. Eyni zamanda, ona verilən cavablara və digər məqamlara nəzər salacağıq. Hələlik isə cənab Lukaşenko nədən danışmışdı?**

**Prezident Lukaşenko demişdi:**

“Mən bir daha düşündüm və müharibədən əvvəl, Sizin azadlıq müharibənizdən öncə söhbətimizi xatırladım. Həmin vaxt biz nahar süfrəsi arxasında ikilikdə fəlsəfi fikir yürüdürdük və belə nəticəyə gəldik ki, müharibədə qələbə çalmaq olar. Bu vacibdir, Qələbəni qoruyub saxlamaq daha vacibdir. Üçüncüsü isə Sizin də bu mövzuya toxunduğunuz kimi, biz ümumi fikrə gəldik ki, müharibədən sonra ən ağır dövr başlayacaq, azad etdiyiniz torpaqları dirçəltməyə, bərpa etməyə başlamaq lazım gələcək. Həmin ağır dövr gəlib çatdı, bu torpaqları dirçəltmək, insanları artıq qaytarmaq lazımdır, onların bəziləri şəhərdə anadan olub, problemlər ola bilər və sair. Qələbə çaldınız və onu qoruyub saxladınız. İndi dirçəliş dövrüdür. Bu, zaman, böyük zəhmət tələb edir, beş və ola bilər ki, on il ərzində həmin işlər yerinə yetirilməlidir”.

*(ardı 4-cü səhifədə)*

# Fransa əkdiyi haqsızlığı biçir



Səhifə ⇨ 4

# Erməni kilsəsinin “azar bazarı” bağlanır

## *Paşinyan bu “nifaq yuvası”nın davakarlığına sədd çəkməyi düşünür*



**Ermənistanda bir aydan çoxdur ki, yüksək olan siyasi hərarət son günlərdə nisbətən aşağı düşüb, lakin həyat əvvəlki axarına tam qayıtmayıb. Daha doğrusu, radikal müxalifət siyasi münasibətlərdə mülayimliyin yaranmasına, gərginliyin aradan qalxmasına heç cür imkan vermir. Ölkə əhalisinin mütləq əksəriyyətinin revanşistlərin çağırışını rədd etməsinə, gündəlik işgücü, qayğıları ilə əlləşməsinə baxmayaraq, radikallar yenidən mitinq təyin ediblər. Mayın 26-da, saat 16:00-da Respublika meydanında keçirilməsi nəzərdə tutulan mitinqin bir çox məsələlərə aydınlıq gətirəcəyi gözlənilir. Həmin gün radikal müxalifətin ya siyasi avantüranı bundan sonra da davam etdirəcəyi, ya da birdəfəlik fiaskoya uğrayacağı məlum olacaq.**

(ardı 5-ci səhifədə)

# Orta Dəhliz – Mərkəzi Asiya və Avropanın ortaq yolu




**ABŞ-ın paytaxtı Vaşinqtonda Xəzər Siyasət Mərkəzi tərəfindən 8-ci Trans–Xəzər Forumu keçirilib. Trans–Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) inkişaf etdirilməsi məsələsinə həsr olunan forumda ABŞ rəsmiləri, səfirlər, diplomatlar, biznes nümayəndələri, akademiklər və ekspertlər iştirak ediblər. Xəzər Siyasət Mərkəzinin Prezidenti Əfqan Nifti qonaqları salamlayaraq bildirib ki, forum regionun potensialının ABŞ-dakı biznes nümayəndələrinə, dövlət rəsmilərinə və ictimaiyyətə çatdırmaq üçün vacib platformadır. Ə.Nifti Mərkəzi Asiya ölkələri və Türkiyənin forumda aktiv iştirakından məmnunluğunu ifadə edib. Eyni zamanda, Azərbaycanın Orta Dəhlizdəki rolunu diqqətə çatdıraraq Zəngəzur dəhlizinin açılması ilə birlikdə Orta Dəhlizin potensialının daha da genişlənəcəyini vurğulayıb. Xəzər Siyasət Mərkəzi rəhbərinin sözlərinə görə, ABŞ və Aİ ölkələrində də Orta Dəhlizə ciddi maraq var.**

(ardı 7-ci səhifədə)

# Makronun Numeada çətin “sülh” axtarışı

**Fransa prezidenti Emmanuel Makron Yeni Kaledoniyaya gəlib. 17 min kilometr məsafəni qət edən Yelisey sarayının sahibi bildirib ki, səfərinin məqsədi “...xalqa dəstək vermək və sakitliyi bərpa etməkdir”. Fransa prezidentinin dənizaşırı əraziyə səfəri müstəqillik tərəfdarlarının etirazları fonunda gerçəkləşir. “Burada məqsədim nazirlərlə və bütün hökumətlə birlikdə xalqı dəstəkləməkdir...”, – deyən Makron adaya “böyük hörmətlə” gəldiyini bildirib. Amma Fransa Senatının prezidentin səfəröncəsi xarici müdaxilənin qarşısının alınmasına dair 4 maddədən ibarət qanun layihəsini qəbul etməsi fransızların kanaklara “hörmətini” göstərdi. Belə ki, həmin qanun Fransanın dənizaşırı ərazilərində, xüsusən də Yeni Kaledoniyada azadlıq hərəkatını boğmaq məqsədi güdür.**

(ardı 11-ci səhifədə)

# İlham Əliyev və Emoməli Rəhmonun təkbətək görüşü



**Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub.**

# Azərbaycan və Tacikistan liderlərinin geniş tərkibdə görüşü



**Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü keçirilib.**

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**



– Hörmətli Emoməli Şaripoviç.

Hörmətli qonaqlar.

Sizi Azərbaycan torpağında salamlamağıma şadam. Çox şadam ki, Siz mənim dəvətimi qəbul etdiniz və Azərbaycana dövlət səfərinə gəldiniz. Görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz Tacikistanda, Azərbaycanda tez-tez görüşürük. Mən ötən il bir neçə dəfə ölkənizə səfər etmişəm, həmçinin Sizin dəvətinizlə Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə toplantısında iştirak etmişəm. Siz, həmçinin ötən il Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın Zirvə toplantısı çərçivəsində ölkəmizdə səfərdə oldunuz. Beləliklə, yüksək səviyyəli təmaslar müntəzəm xarakter daşıyır və bu gün biz Sizinlə həm ikitərəfli gündəliklə, həm də beynəlxalq, regional problemlərlə bağlı bir çox mühüm məsələlər üzrə məsləhətləşmələri və müzakirələri davam etdirdik. Aydındır ki, dövlət səfərinin xüsusi statusu var və bu, münasibətlərimizin bugünkü yüksək səviyyəsinin təzahürüdür. Həmçinin münasibətlərin inkişafında mühüm mərhələlərdən biri bu gün imzalayacağımız, bununla da münasibətlərimizin səviyyəsini rəsmi şəkildə yüksəldəcəyimiz Strateji Tərəfdaşlıq Bəyannaməsidir. Hərçənd qarşılıqlı münasibətlərin tarixinə və xarakterinə nəzər salsaq, onların çoxdan strateji tərəfdaşlıq xarakteri daşıdığını görərik.

Bizim hədəfimiz bütün istiqamətlər üzrə fəal qarşılıqlı fəaliyyətdir. Bildiyiniz kimi, Sizin səfərinizdən əvvəl biznes-forum olub. Tacikistanın Azərbaycanda Mədəniyyət Günləri keçirilir. Bütün bunlar münasibətlərimizi konkret məzmunla zənginləşdirir. İqtisadi xarakterli bir neçə sənəd imzalanıb. Bu gün nümayəndə heyətlərinin üzvləri ilə müzakirələr çərçivəsində əlaqələrimizə daha çox məzmun əlavə etmək üçün bu gündəliyi ətraflı nəzərdən keçirəcəyik. Çünki ticarət dövriyyəsinin statistik rəqəmləri ilə tanış olduqdan sonra, əlbəttə ki, onların hələlik bizi qane edə biləcəyini deyə bilmərik. Düşünürəm ki, bizim bu gün Sizinlə, sonra nümayəndə heyətlərinin üzvləri ilə artıq razılığa gəldiyimiz və müzakirə edəcəyimiz məsələlər ticarət dövriyyəsinin artmasına kömək edəcək. Təbii ki, bizim müzakirə etdiyimiz mövzulardan biri də Tacikistanın və Azərbaycanın nəqliyyat-logistika infrastrukturunun yeni imkanlarının nəzərə alınması ilə nəqliyyat sektorunda əməkdaşlıqdır. Hesab edirəm ki, bu istiqamətdə səylərimizi birləşdirmək, addımlarımızı daha sıx əlaqələndirmək faydalı olacaq. Çünki Transxəzər nəqliyyat dəhlizi Avropa regionu və Mərkəzi Asiya regionu üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Azərbaycan isə Avropa ilə Asiyanın qovuşuğunda yerləşən birləşdirici ölkə kimi özünün nəqliyyat infrastrukturu ilə, əlbəttə ki, bu məsələdə mühüm rol oynayır.

Gündəliyimiz kifayət qədər genişdir. Təkcə nümayəndə heyətlərinin tərkibi bizim hansı istiqamətlər üzrə fəal qarşılıqlı fəaliyyət göstərdiyimizdən xəbər verir. Əminəm ki, nəticələr də çox yaxşı olacaq və səfər faydalı, həmçinin xoş keçəcək.

Bir daha xoş gəlmisiniz.

***

**Prezident Emoməli Rəhmon dedi:**

– Çox sağ olun, hörmətli İlham Heydər oğlu.

Əziz dostlar.

İlk növbədə, hörmətli İlham Heydər oğlu, yüksək diqqətinizə və səmimi qonaqpərvərliyinizə görə Sizə səmimi-qəlbdən təşəkkür etmək istəyirəm. Şadam ki, biz qarşılıqlı səfərlər ənənəsini yüksək səviyyədə davam etdiririk. Əminəm ki, bugünkü görüşlərin nəticələri ölkələrimizin əməkdaşlığını yeni inkişaf səviyyəsinə yüksəldəcək. Azərbaycan Tacikistanın etibarlı dostu və tərəfdaşıdır. Ölkələrimizi



zamanın sınağından çıxmış münasibətlər birləşdirir. Bizim aktual regional və beynəlxalq məsələlərdə mövqelərimiz eynidir. Ölkələrimizin xalqlarının daha da yaxınlaşmasına yönələn humanitar əlaqələr fəal inkişaf edir.

Bu gün biz dövlətlərarası münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldən tarixi qərar qəbul edəcəyik. Bu, xalqlarımızın qardaşlığının və dostluğunun əsrlərdən bəri davam edən ənənələrinin ruhuna uyğundur. Bu qərarlar müstəqilliyimizin bütün dövründə qarşılıqlı fəaliyyətimizin irəliləməsində əldə olunan uğurları daha da möhkəmləndirir. Bu baxımdan qeyd etmək istərdim ki, bu prosesin başlanğıcını Azərbaycan xalqının Ümummilli lideri, çox hörmətli Heydər Əlirza oğlu Əliyev qoyub. Əminəm ki, bu gün əldə ediləcək razılaşmalar qardaş xalqlarımızın dərin maraqlarına cavab verəcək və Tacikistan–Azərbaycan münasibətlərinin möhkəm təməlinə çevriləcək. Sizə təşəkkür edirəm.

# Azərbaycan–Tacikistan sənədləri imzalanıb

**Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə Azərbaycan–Tacikistan sənədlərinin imzalanması mərasimi olub.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"ni imzaladılar.

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Tacikistanın sənaye və yeni texnologiyalar naziri Kabir Şerali "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Tacikistan Respublikasının Sənaye və Yeni Texnologiyalar Nazirliyi arasında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycanın ədliyyə naziri Fərid Əhmədov və Tacikistan Respublikası Hökuməti yanında İcra Xidmətinin rəisi Barno Saidvalizoda "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Tacikistan Respublikası Hökuməti yanında İcra Xidməti arasında məhkəmə aktlarının və digər orqanların aktlarının icrası sahəsində əməkdaşlıq haqqında Memorandum"u imzaladılar.

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Tacikistan Respublikası Hökuməti yanında Ətraf Mühitin Mühafizəsi Komitəsinin sədri Baxodur Şeralizoda "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Tacikistan Respublikası Hökuməti yanında Ətraf Mühitin Mühafizəsi Komitəsi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Tacikistanın iqtisadi inkişaf və ticarət naziri Zavki Zavkizoda "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında rəqəmsal ticarət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Tacikistanın daxili işlər naziri Ramazon Raximzoda "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlığa dair Saziş"i imzaladılar.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Tacikistanın xarici işlər naziri Muxriddin Sirodjiddin "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında informasiyanın texniki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzaladılar.

# Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər



**Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

## Prezident İlham Əliyevin bəyanatı



– Hörmətli Emoməli Şaripoviç.

Əziz dostlar.

Əziz qonağımız, Azərbaycanın böyük dostu, qardaş Tacikistanın Prezidenti Emoməli Şaripoviç Rəhmonu qəbul etmək bizim üçün böyük şərəfdir.

Bu gün nümayəndə heyətləri üzvlərinin iştirakı ilə geniş tərkibdə, həmçinin təkbətək görüş əsnasında qarşılıqlı fəaliyyətimizlə bağlı məsələlərin geniş spektrini müzakirə etdik, sənaye kooperasiyası, humanitar sahədə əməkdaşlıq üzrə iqtisadi xarakterli bir çox layihənin reallaşdırılmasına dair hökumətimizin üzvlərinə konkret tapşırıqlar verdik.

İlin sonunda Emoməli Şaripoviç yenidən ölkəmizə səfər edəcək, biz bir daha bütün məsələləri nəzərdən keçirəcək və verilən tapşırıqların yerinə yetirilməsinə nəzarət edəcəyik. Mən Tacikistan Prezidentini noyabrda keçiriləcək iqlim konfransında iştiraka dəvət etdim. Bu dəvət qəbul olundu. Biz bu beynəlxalq tədbirin keçirilməsinə fəal hazırlaşırıq və Tacikistanın aktiv iştirakını gözləyirik. Əminəm ki, tacik dostlarımız bu konfransın uğurla keçirilməsinə və yaxşı nəticələr əldə edilməsinə böyük töhfə verəcəklər.

Qarşılıqlı fəaliyyətimizin əsasında çoxəsrlik tarix boyu əməkdaşlıq etmiş, dost olmuş, birlikdə qurub-yaratmış xalqlarımızın iradəsi dayanır. Bu gün dövlətlərarası münasibətlərimiz ən yüksək səviyyəyə çatıb.

Biz indicə münasibətlərimizin xarakterini, ruhunu, həmçinin xalqlarımızın iradəsini əks etdirən Strateji Tərəfdaşlıq Bəyannaməsini imzaladıq. Bəyannamə qarşılıqlı fəaliyyətin demək olar bütün sahələrini əhatə edir. Bu sənəddə qarşılıqlı dəstək və konkret nəticələrə diqqət ifadə olunub.

Bu gün iqtisadi əməkdaşlıq məsələlərini ətraflı müzakirə etdik. Strateji Tərəfdaşlıq Bəyannaməsi ilə yanaşı, daha 13 sənəd, ümumilikdə, 14 sənəd imzalanıb ki, onlardan bəziləri burada, bəziləri isə əvvəllər imzalanıb. Bu, münasibətlərimizin müqavilə-hüquq bazasını xeyli möhkəmləndirir. Tacikistan Prezidentinin səfəri ərəfəsində biznes-forum keçirildi, bu forumda da sənədlər və qarşılıqlı anlaşma memorandumları imzalandı və bu barədə bu gün bizə məlumat verildi. Hesab edirəm ki, bu, bizə qarşılıqlı ticarətin həcmini xeyli artırmağa imkan verəcək.

Bu günlərdə keçirilən və bir neçə gün, təxminən bir həftə davam edəcək Azərbaycanda Tacikistanın Mədəniyyət Günləri də ikitərəfli münasibətlərdə mühüm hadisədir. Düşünürəm və əminəm ki, o, tacik xalqının zəngin mədəniyyəti ilə tanış olmaq imkanı əldə edən Azərbaycan tamaşaçılarına sevinc bəxş edir.

Bu gün biz sənaye kooperasiyası ilə bağlı məsələləri ətraflı müzakirə etdik və əminəm ki, haqqında danışdığımız məsələlər, hökumət üzvlərinə verilən tapşırıqlar ən qısa zamanda icra olunacaq. Nəqliyyat sektoru da diqqət mərkəzimizdə olub. Biz Orta Dəhlizi və onun bir hissəsi olan Transxəzər Nəqliyyat Dəhlizini Tacikistandan yükgöndərənlər üçün daha cəlbedici etmək məqsədilə logistika əlaqələrinə dair məsələləri ətraflı nəzərdən keçirdik. Mən həmkarıma məlumat verdim ki, Azərbaycan öz ərazisində bütün iri nəqliyyat və logistika layihələrini praktiki olaraq başa çatdırıb və bu gün müxtəlif istiqamətlərdə – Şərqdən Qərbə və əks istiqamətdə, Şimaldan Cənuba və əks istiqamətdə böyük həcmdə yükləri qəbul etməyə hazırdır.

Bu gün, həmçinin geosiyasi dəyişikliklər, dünyadakı vəziyyət, regionlarımızdakı şərait ilə bağlı məsələləri müzakirə etdik. Biz təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və bu sahədə əməkdaşlığın inkişafı, təhsil, mədəniyyət və kənd təsərrüfatı ilə bağlı məsələləri ətraflı nəzərdən keçirdik. Başqa sözlə, hətta ölkələrimizin nümayəndə heyətlərinin tərkibi də geniş gündəmdən xəbər verir. Amma, əlbəttə, əsas olan münasibətlərimizdəki səmimiyyət, Tacikistanla Azərbaycan arasındakı münasibətlərin dostluq, qardaşlıq xarakteri, təbii ki, dövlət başçılarının şəxsi təmaslarıdır.

*(ardı 3-cü səhifədə)*

# Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

**(əvvəli 2-ci səhifədə)**

Keçən il mən Tacikistanda iki dəfə – həm dövlət səfərində oldum, həm də Emoməli Şaripoviç məni Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə görüşünə fəxri qonaq qismində dəvət etdi. Həmçinin ötən il biz BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramının – SPECA-nın Sammitini keçirdik və Emoməli Şaripoviç ölkəmizə səfər etdi. Yəni, bizim Tacikistan və Azərbaycanda müntəzəm təmaslarımız, – hələ beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşləri demirəm, – əlbəttə ki, qarşılıqlı fəaliyyətimizin ən mühüm amilidir, münasibətlərin konkret olaraq zənginləşməsi üçün bütün sahələrə güclü təkan verir.

Hörmətli Emoməli Şaripoviç, bir daha Sizi səmimiyyətlə salamlayıram. Dəvətimi qəbul etdiyinizə və dövlət səfərinə gəldiyinizə görə təşəkkür edirəm. Qardaş Tacikistanın xalqına Sizin rəhbərliyinizlə yeni qələbələr arzulayıram. Təxminən 20 il ərzində Tacikistana səfər edən bir şəxs kimi hər dəfə irimiqyaslı dəyişikliklərin, iqtisadi, sosial inkişafın, şəhərsalma sahəsində uğurların şahidi oluram. Hər dəfə Düşənbədə olarkən şəhərin necə gözəlləşdiyini, onun sakinlər və qonaqlar üçün rahat olduğunu görürəm. Buna görə də bir daha bütün nailiyyətlər münasibətilə təbrik edirəm. Sizə və qardaş tacik xalqına yeni uğurlar arzulayıram.

***

Sonra Tacikistan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Emoməli Rəhmonun bəyanatı



– Sağ olun, hörmətli İlham Heydər oğlu.

Hörmətli media nümayəndələri.

Xanımlar və cənablar.

İlk növbədə, ənənəvi qonaqpərvərliyə, yüksək diqqətə və səmimi qəbula görə Azərbaycan Respublikasının Prezidenti, əziz dostum və qardaşım İlham Heydər oğlu Əliyevə və qardaş Azərbaycan xalqına ürəkdən təşəkkür etmək istəyirəm.

Bu gün regionun ən böyük sənaye, iqtisadi və elmi-texniki mərkəzlərindən biri olan qədim tarixə malik gözəl Bakı şəhərini növbəti dəfə ziyarət etdiyimə görə çox şadam. Azərbaycan paytaxtının təkrarolunmaz siması ölkənin dinamik sosial-iqtisadi inkişafının və Azərbaycan xalqının rifahının davamlı olaraq yüksəlməsinin təcəssümüdür.

Bugünkü görüşlərimiz Tacikistan–Azərbaycan dostluq və əməkdaşlıq münasibətlərinə xas konstruktiv və etimad mühitində keçdi. Danışıqlar zamanı iki ölkə arasındakı münasibətlərin bütün kompleksini ətraflı müzakirə etdik. Bu münasibətlərin uzunmüddətli inkişafının təməlini əhəmiyyətli dərəcədə gücləndirən bir sıra vacib razılaşmalar əldə etdik.

Hörmətli İlham Heydər oğlu qeyd etdiyi kimi, bu gün biz dövlətlərarası münasibətlərimizin səviyyəsini strateji tərəfdaşlığa yüksəldən tarixi qərar qəbul etmişik. Bu qərar şübhəsiz ki, əməkdaşlığımızın tarixində yeni səhifə açır. Öz növbəmdə müntəzəm siyasi dialoqun bütün səviyyələrdə aparılmasının vacibliyini vurğulamaq istərdim.

Tacikistanda Azərbaycan Prezidenti İlham Əliyevin ölkələrimizin ikitərəfli münasibətlərinin inkişafına şəxsi töhfəsi yüksək qiymətləndirilir. Danışıqlar zamanı Azərbaycan Prezidentinin Tacikistana ötənilki dövlət səfəri zamanı əldə edilmiş razılaşmaların əməli surətdə həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirildi. İqtisadi-ticari sahədə əməkdaşlığımızın inkişafı diqqət mərkəzində saxlanıldı. Ölkələrimizin hökumətlərinə 2025-ci ilədək hökumətlərimiz arasında iqtisadi əməkdaşlıq üzrə Tədbirlər Planının tam icrasına ciddi nəzarət etmək tapşırıldı. İqtisadi-ticari əməkdaşlıq məsələləri üzrə Birgə hökumətlərarası komissiyanın daha səmərəli işləməsi məqsədilə biz onu həmsədrlər səviyyəsindən Baş nazirlərin müavinləri səviyyəsinə qaldırmağı təklif etdik.

Həmçinin parlamentlərarası dialoqun inkişafına dair fikir mübadiləsi aparıldı.

Danışıqlar zamanı bir daha Azərbaycan şirkətlərinin və maliyyə qurumlarının Tacikistanda layihə və proqramların həyata keçirilməsində iştirak imkanlarını prioritet qaydada nəzərdən keçirməyə hazır olduğumuzu bildirdik. Bakıda səfərimiz çərçivəsində keçirilən biznes-forum tərəflərin iqtisadi-ticari əlaqələrini inkişaf etdirmək üçün geniş imkanlara malik olduqlarını göstərdi. Ümidvaram ki, onun nəticələri bu gün imzalanmış ikitərəfli sənədlərlə yanaşı, bu istiqamətdəki əməkdaşlığımıza da təkan verəcək. Qeyd etmək lazımdır ki, forum çərçivəsində imzalanmış kommersiya müqavilələrinin və sazişlərin ümumi məbləği bütövlükdə 700 milyon ABŞ dollarından çox olub. Müvafiq nazirliklərə və idarələrə ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması məqsədilə qarşılıqlı tədarük olunan malların nomenklaturasının genişləndirilməsinə yeni yanaşmaların hazırlanması üçün konkret tapşırıqlar verildi.

Danışıqlar zamanı biz aqrar sahəyə də xüsusi diqqət yetirdik. Biz turizm sahəsində əməkdaşlığın inkişafına dair Yol Xəritəsinin imzalanmasını alqışladıq. Bununla bağlı müvafiq qurumlara paytaxtlarımız arasında birbaşa aviareyslərin bərpası üçün tədbirlərin görülməsi tapşırıldı.

Nəqliyyat və kommunikasiya sahələrinə xüsusi diqqət yetirildi. Tacikistanın dövlət və kommersiya strukturlarının Azərbaycan ərazisindən yük daşımalarının həcminin artması tendensiyasını məmnunluqla qeyd etdik. Tacikistanın yük daşıyıcılarına məqbul tranzit tarifləri təqdim etdiyinə görə Azərbaycan tərəfinə minnətdarlığımızı bildirdik.

Danışıqlarımızda mədəni-humanitar əməkdaşlıq məsələsi də mühüm yer tutdu. Bu baxımdan, təhsil sahəsində əməkdaşlığın inkişafına diqqət yetirildi. İki ölkənin universitetlərində təhsil almaq üçün qarşılıqlı olaraq ayrılan kvotaların sayını artırmaq barədə razılığa gəldik. Səfər çərçivəsində keçirilən mədəni tədbirlər ölkələrimizin vətəndaşlarının bir-birimizin mədəni nailiyyətləri ilə tanış olmaq marağını və istəyini bir daha sübuta yetirdi. Biz dostlarımıza təklif etdik ki, gələn il Tacikistanda Azərbaycan Mədəniyyət Günlərini keçirək və bu tədbir çərçivəsində Tacikistan və Azərbaycan xalqları arasında Dostluq festivalı təşkil edək.

Danışıqlar zamanı təhlükəsizliklə bağlı risklər və təhdidlər müzakirə edildi. Öz növbəmdə onu qeyd etmək istərdim ki, beynəlxalq aləmdə mövcud vəziyyət mürəkkəb və gərgin olaraq qalmaqdadır. Fürsətdən istifadə edərək vurğulamaq istəyirəm ki, Tacikistan bütün ziddiyyətlərin və münaqişələrin sülh yolu ilə həllinin tərəfdarıdır. Biz Azərbaycanla təhlükəsizlik sahəsində səmərəli əməkdaşlığın səviyyəsindən və məzmunundan məmnunluğumuzu bildiririk. Bu baxımdan, terrorizmə və ekstremizmə, radikalizmin təzahürlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, o cümlədən kibercinayətkarlığa və narkotik qaçaqmalçılığına qarşı mübarizəyə mühüm yer ayırırıq. Bu xətt üzrə xüsusi xidmət orqanlarının və ixtisaslaşdırılmış digər idarələrin fəaliyyətinin əlaqələndirilməsinin gücləndirilməsini zəruri hesab edirik.

Beynəlxalq və regional təşkilatlar çərçivəsində ölkələrimizin təşəbbüslərinin qarşılıqlı şəkildə dəstəklənməsi təcrübəsinin davam etdirilməsinin tərəfdarı olduğumuzu bildirdik. Azərbaycanın bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti sessiyasını (COP29) keçirməsi ilə bağlı qərarını alqışlayırıq.

Vurğulamaq istərdim ki, biz Tacikistan-Azərbaycan münasibətlərinin inkişaf perspektivlərinə nikbin baxırıq.

Sonda hörmətli İlham Heydər oğlu, səmimi qəbula və qardaşcasına qonaqpərvərliyə görə Sizə və qardaş Azərbaycan xalqına bir daha səmimi-qəlbdən təşəkkürümü bildirmək istəyirəm.

Onu da demək istərdim ki, mən konstruktiv dialoqumuzu davam etdirmək məqsədilə əziz dostum və qardaşım İlham Heydər oğlu Əliyevi böyük məmnuniyyətlə Tacikistana səfərə dəvət etmişəm.

Çox sağ olun. Diqqətinizə görə təşəkkür edirəm.

# Dövlət səfəri başa çatıb

**Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun Azərbaycan Respublikasına dövlət səfəri mayın 23-də başa çatıb.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonu Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Prezident İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsi

*Azərbaycan lideri: Hər bir ölkə maliyyə imkanlarından və gündəmindən asılı olaraq üzərinə düşən vəzifəni yerinə yetirməlidir*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı "Euronews" telekanalına müsahibə verib. AZƏRTAC həmin müsahibəni təqdim edir.**

**Müxbir:** Prezident Əliyev, Sizinlə söhbət etmək həmişə olduğu kimi çox xoşdur. Biz Berlində, Petersberq İqlim Dialoqu tədbirindəyik. Bu, həqiqətən də COP29-a aparan yolun başlanğıcıdır. Yəqin ki, komandanız çox həyəcanlıdır. Builki COP-dan nə gözləyə bilərik, hansı məsələlər icra olunacaq və sadəcə, müzakirə olunmayacaq?

**Prezident İlham Əliyev:** Biz bütün tərəflərin özlərini rahat hiss etdiyi bir mühit yaratmaq istəyirik. Bizim Qoşulmama Hərəkatında körpü rolunu oynamaqda böyük təcrübəmiz var. Bildiyiniz kimi, Hərəkata dörd il sədrlik etdik. Hesab edirəm ki, 120 üzv ölkə ilə biz həqiqətən də böyük tərəqqiyə nail olduq. Biz Avropa İttifaqına üzv olan ölkələrlə fəal işləyirik. Bu gün konfransda dediyim kimi üzv ölkələrin doqquzu ilə strateji tərəfdaşlıq haqqında Bəyannaməni imzalamışıq və qəbul etmişik. Digər sözlə, Qlobal Cənub və Qərb və iqlim dəyişikliyi məsələlərinin öhdəsindən gəlmək üçün birlikdə bu prosesdə necə iştirak etməliyik, həmrəyliyi, ortaq məsuliyyəti necə gücləndirməliyik və iqlim dəyişikliyi məsələləri ilə bağlı müəyyən inamsızlığı necə azaltmalıyıq? Çünki siz fərqli ideyaları, fərqli fikirləri bilirsiniz.

**Müxbir:** Qazıntı yanacağı ideyası ötən il BƏƏ-də keçirilən COP28-də üstünlük təşkil edirdi. Bilmək istərdim ki, Sizin fikrinizcə, COP tarixində qazıntı yanacağı hasil edən ölkənin dəyişikliklərin edilməsi və keçid prosesində aparıcı rola malik olması müsbət hadisə olaraq qiymətləndirilirmi?

**Prezident İlham Əliyev:** Biz məhz buna nail olmağa çalışırıq. Konfransda verdiyim mesajlardan biri də o idi ki, bizi malik olduqlarımıza görə mühakimə etməyin. Bizi onlardan necə istifadə etdiyimizə, gündəmimizə görə mühakimə edin. Avropadakı, Qoşulmama Hərəkatındakı iştirakımızla bağlı dediklərimdən əlavə, həmçinin bir məsələni də anlamaq vacibdir ki, biz həm də OPEC+ üzv ölkəsiyik. Biz COP-dan əvvəl daha çox maliyyələşməni təmin etmək üçün Azərbaycan və neft hasil edən digər ölkələrin hansı əlavə töhfələri ola bilər kimi həmrəylik paketini yaratmaq üçün bir çox neft hasil edən ölkələrlə işləyirik. Hesab edirəm ki, neft hasil edən ölkələr, xüsusilə neftin qiyməti yüksək olanda problemin öhdəsindən gəlmək üçün daha çox ödəniş etməli və daha çox töhfə verməlidir. Hesab edirəm ki, həmrəylik maliyyələşmənin və necə uğur qazanacağımızın ayrılmaz hissəsidir.

**Müxbir:** COP29-un davamlı mirası olaraq nəyi görmək istərdiniz?

**Prezident İlham Əliyev:** Əgər yaşıl dünyaya doğru əlavə və davamlı olan konkret addımlar ata bilsək, bu, ən vacib miras olacaq. Eyni zamanda, bildiyiniz kimi COP üçün yenilik olan bir təşəbbüs bizim tərəfimizdən irəli sürülmüşdür. Üçlük, üç ölkə mexanizminin yaradılması. Burada məqsəd bu üçtərəfli əməkdaşlıq formatını yaratmaq üçün BƏƏ-nin, Azərbaycanın və sonra Braziliyanın təcrübəsindən istifadə etməkdir. Çünki hər üç ölkə müxtəlif regional, iqtisadi, siyasi və sair məsələlərdə iştirak edir. Beləliklə, biz qarşılıqlı səylər, həmrəylik göstərməli, bir-birimizi günahlandırmağı dayandırmalıyıq. Nefti olmayan ölkələr nefti olan ölkələri ittiham etməməlidir, kiçik və inkişaf etməkdə olan ölkələr inkişaf etmiş böyük ölkələrə "siz iqlim fəlakətinə görə məsuliyyət daşıyırsınız" deməklə onlara qarşı tələblər irəli sürməməlidirlər. Beləliklə, bu, diplomatiyadır, siyasətdir, maliyyədir və əlbəttə ki, ev sahibi ölkəsi kimi biz bunun üçün bir platforma yarada bilərik.

**Müxbir:** Cənab Prezident, Sizinlə söhbət etmək xoş idi. Bu gün bizə vaxt ayırdığınıza görə çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

# T.P.Əliyevanın 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə görə Telli Pənah qızı Əliyeva 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 may 2024-cü il**

# Türkiyənin parlament heyəti Milli Məclisdə



**Mayın 23-də Milli Məclisin Azərbaycan–Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisi (TBMM) Baş katibinin müavini Naim Çobanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin hazırkı vəziyyətindən məmnunluq ifadə olunub, həmçinin ölkələrin parlament aparatları arasında əməkdaşlığın, qarşılıqlı təcrübə mübadiləsinin və mütəmadi səfərlərin əhəmiyyəti vurğulanıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Naim Çoban deyib ki, ikitərəfli əlaqələrin dərinləşməsində parlamentlərarası münasibətlərin rolu böyükdür. İşçi qruplarının təmaslarının, qarşılıqlı səfərlərinin əhəmiyyətini də qeyd edən qonaq, iki ölkənin parlament aparatları arasında həyata keçirilən təcrübə mübadilələri və qarşılıqlı səfərlər barədə də məlumat verib.

***XQ***

# Nikol Paşinyanın Aleksandr Lukaşenko qınağı



(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, Ermənistanın baş nazirinin, eləcə də Cənubi Qafqazda maraqlı olan qüvvələrin menyusuna Belarus liderinin Bakıdakı fikirlərinin birini də əlavə edək. Əlavə edək ki, cənab Lukaşenkonun ustalıqla təsvir etdiyi mənzərə daha aydın görünsün: “Bəli, biz regionlarımızda təhlükəsizlik məsələlərini müzakirə etmişik. İlham Heydər oğlu burada baş verənlərlə bağlı mənə ətraflı məlumat verdi, qeyri-sabit regiondur, Allaha şükürlər olsun ki, burada Azərbaycanın timsalında olduqca güclü, normal lider ölkə mövcuddur. Siz Qafqaz regionunu nəzarətdə saxlamağa qadirsiniz. Bu, artıq təkcə Azərbaycana görə məsuliyyət daşımaq demək deyil, Siz artıq bütün Qafqazdakı vəziyyətə cavabdehsiniz, biz – Qafqazda yaşamayan xalqlar buna çox böyük ümid bəsləyirik. Ona görə də, bu, Sizin üçün əlavə yük deməkdir, halbuki öz problemləriniz də var, lakin yenə də, nə etmək olar. Zaman Sizi seçib, bizdə belə deyirlər və Siz lider olaraq Qafqaz regionuna görə məsuliyyət daşıyırsınız”.

***

Əlqərəz, N.Paşinyan Milli Assambleyadakı hökumət saatında çıxış edib və Belarus Prezidentinin söylədiklərinə münasibət bildirərkən deyib ki, Ermənistana qarşı 44 günlük müharibənin hazırlanmasında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının ən azı iki üzvü iştirak edib. “Mən KTMT-yə üzv olan ən azı iki ölkəni tanıyıram ki, onlar bizə qarşı müharibənin hazırlanmasında iştirak ediblər. Bu ölkələr təbii olaraq bizə, guya, kömək göstərdikləri ilə bağlı imitasiya yolu tutdular. Amma bir daha demək istəyirəm ki, müharibə heç də Qarabağa görə deyildi. Çünki mən İstintaq Komissiyasında göstərmişəm ki, onlar Qarabağ məsələsini özləri üçün çoxdan bağlayıblar. Həmin müharibənin məqsədi Ermənistan Respublikası adlı müstəqil dövlətin olmaması idi”, – deyən erməni baş nazir A.Lukaşenkonun ictimai qaydada fikirlərini açıqlamasından sevindiyini də dilə gətirib. Nikolun sözlərindən belə çıxıb ki, rəhbəri olduğu hökumətin məqsədi Ermənistanı əzmək istəyənləri üzə çıxarmaqdır və mövcud istiqamətdə iş aparılır. O, bir qədər də atmacalı şəkildə bunları vurğulayıb: “Bu cəhdlər davam edəcək. Hələ də bu barədə ictimaiyyətə danışmasına ehtiyac duyulan insanlar var”.

Paşinyan ardınca özünün konsprioloji dünyagörüşünü işə salıb. O, Ermənistanın dövlətçiliyinə qəsd cəhdlərinini sadalayıb və bildirib ki, hücumlar 2020-ci il noyabrın 9-da və ondan sonra, eləcə də 2021-ci ilin mayında Milli Assambleya və hökumətin buraxılması ilə uğursuzluğa düçar olub. Həmçinin, bu cəhdlər 2022-ci ilin və 2023-cü ilin sentyabr aylarında uğursuzluqla nəticələndi. Nəhayət: “2024-cü il mayın 9-da cəhd edildi, amma yenidən işləmədi və işləməyəcək. O cümlədən, tənqid etdikləri delimitasiya prosesinə görə. Delimitasiya prosesi ilə biz 2024-cü il mayın 9-da baş vermiş hadisələrlə paralel olaraq, bir çoxlarını sərhəd toqquşmalarını qızışdırmaq imkanından məhrum saldıq”.

Erməni baş nazir, həmçinin 2022-ci ildə ölkə tribunasından səsləndirdiyi qənaətini xatırladıb. Onun sözlərinə görə, əgər yaxın bir-iki ildə Ermənistanın dövlətçiliyini qoruyub saxlamaq mümkün olarsa, 50-100 il ərzində onun mövcudluğuna təminat yaranacaq. “Delimitasiya prosesinə gəlincə, dediklərim mübaliğə kimi görünə bilər. Lakin biz problemi 60 faiz həll etmişik. Hay-küylü insanlar vətəndaşlar arasında şüurun kök salmasının qarşısını almaq məqsədi daşıyırlar. Biz isə bu gün Kirantsda, Voskeparda, Berkaberdə dövlətimizin təməl daşlarını qoyuruq. Onun üzərində dövlət, təhlükəsizlik, azadlıq, xoşbəxtlik qurulacaq”, – deyə Paşinyan fikrini tamamlayıb.

***

Əlbəttə, Ermənistan baş nazirinin ucuz populizm notlu çıxışında səslənmiş fikirlərin hədəfi məlumdur. O, ilk baxışdan, Prezident Lukaşenkoya fokuslanır, Belarus liderinin adını çəkir. Amma, necə deyərlər, ayının min oyunu bir armudun başındadır. Paşinyan, əslində, Ermənistanın Rusiyaya əks xəttini yenidən gündəmə gətirir. Mövcud xüsusdakı açıq və ənənəvi ittiham ünvanı isə KTMT-dir. Yəni, Nikol hazırda anti-Rusiya məntiqi çərçivəsində Ermənistanın anti-KTMT kursunu dərinləşdirməklə məşğuldur.

Paşinyan ölkəsinin 44 günlük müharibədəki məğlubiyyətinə səbəb olmuş dövlətlərin, belə demək mümkünsə, faş ediləcəyindən danışırsa, buna Rusiya tərəfindən də təpkilərin formalaşması mütləqdir və formalaşır da. Nikolu sərt tənqidə məruz qoyanların başında isə qatı ermənipərəst mövqeyi ilə seçilən, Rusiya Dövlət Dumasının MDB işləri və Avrasiya inteqrasiyası üzrə komitəsinin sədr müavini Konstantin Zatulin dayanır. Zatulin Paşinyanın haqqında söz açdığımız nitqindəki fikirlərini yalnız tənqid etməyib. O, Nikola, sözün əsl mənasında, təhqir yağdırıb, erməni hökumət rəhbərini “yalançı” və “əclaf” adlandırıb: “Paşinyan yalançı və əclafdır. Erməni xalqının qəzəbini Rusiyaya yönəltməyə çalışır. O, sələflərinin və bütün erməni xalqının uzun illər mübarizə apardığı hər şeyi uğursuzluğa düçar etmiş və itirmişdir”, – deyə vurğulayıb. Zatulin Paşinyanın Ermənistan parlamentindəki son çıxışında Belarusla yanaşı, Rusiyanı da 44 günlük müharibədəki məğlubiyyət səbəbindən qınadığını deyib.

Qeyd edək ki, Paşinyanın Qarabağ məsələsindəki mövqeyinə görə KTMT-ni ittiham ritorikası 2022-ci ildən start götürüb. O, həmin ilin noyabrında qurumun Dövlət Başçıları Şurasının İrəvanda keçirilmiş və Rusiya Prezidenti Vladimir Putinin də qatıldığı toplantısında bildirmişdi ki, KTMT ölkəsinin 2020 və 2021-ci illərdə “Azərbaycan qoşunlarının Ermənistan ərazisinə təcavüzü zamanı” yardımla bağlı müraciətlərinə cavab verməyib, 2022-ci ilin sentyabrında Azərbaycanla sərhəddə baş vermiş silahlı toqquşmalarla əlaqədar İrəvanın irəli sürdüyü məsələlərə əhəmiyyətsiz yanaşıb.

Məlumdur ki. 2020-ci ildən indiyədək Nikolun komandasındakı ayrı-ayrı şəxslər də Ermənistanda anti-KTMT xəttinin dərinləşməsində fəal rol oynayıblar. Nəhayət, 2024-cü ilin fevralında Paşinyan bildirib ki, KTMT öhdəliklərini yerinə yetirməsə, Ermənistan ona üzvlüyünü donduracaq. Dondurmanın mahiyyətinə gəldikdə, baş nazirin fikrincə, bu, ölkənin alyansda daimi nümayəndəsinin olmaması və təşkilatın yüksək səviyyəli tədbirlərində iştirakdan imtina məntiqinə söykənir.

Yeri gəlmişkən, Paşinyan mart ayında da KTMT-ni ittiham predmetinə çevirməsi ilə yadda qalmışdı. O bildirmişdi ki, təşkilat İrəvanın qaldırdığı suallara cavab verməsə, Ermənistan ondan ayrılacaq. Baş nazirin sözlərinə görə, KTMT Ermənistanı Azərbaycanla sərhəddə sülhməramlılar yerləşdirməyə hazır olduğuna əmin edib, lakin respublikadakı məsuliyyət sahəsini göstərmədiyindən, həmin sahənin harada yerləşdiyinə cavab verməlidir: “Əgər KTMT bu suala cavab versə və cavab bizim ideyalarımıza uyğun gəlsə, bu, Ermənistanla KTMT arasındakı məsələlərin bütün nəticələrlə həll olunduğu anlamı daşıyacaq. Əks halda, Ermənistan qurumdan çıxacaq. Nə vaxt deyə bilmərəm”.

Onu da vurğulayaq ki, KTMT-dən İrəvanın sualına cavab olaraq bildirilmişdi ki, təşkilatın Ermənistandakı məsuliyyət zonası ölkənin nizamlanmış dövlət sərhədləri çərçivəsindəki suveren əraziləridir. Məlumdur ki, bu ərazilər yoxdur. Çünki Azərbaycanla Ermənistan arasında hazırda start götürmüş delimitasiya və demarkasiya proseslərinə mart ayında hələ başlanılmamışdı.

Atmacalı ritorikasına sadiq qalan Paşinyan daha sonra Ermənistan hakimiyyətinin KTMT-də iştirakın məqsədəuyğunluğu ilə maraqlandığını demişdi. Onun sözlərinə görə, təşkilat üzv ölkələrin ümid edə biləcəyi mexanizm funksiyasını öz üzərinə götürməyib: “Ermənistan cəmiyyətini maraqlandırır ki, niyə ölkə hələ də KTMT-nin üzvü olaraq qalır. Açığını deyim ki, suala cavabım yoxdur”.

Bir məqamı da diqqətə çatdıraq ki, Paşinyanın ardınca Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan da KTMT-yə qarşı çıxmışdı. O da öz növbəsində qurumun mexanizmlərinə “ilişmişdi”: “KTMT hərbi-siyasi birlikdir və artıq qeyd etdiyim kimi, üzv dövlətlərin sərhədlərini qorumaq üçün yaradılıb. Biz hələ də KTMT-nin üzvüyük. Lakin çalışmalıyıq ki, müəyyən edilmiş bütün mexanizmlər işləsin və buna ehtiyac var”.

Onu da bildirək ki, Rusiya Xarici İşlər Nazirliyi Ermənistan hakimiyyətinin KTMT-ni əsassız ictimai tənqidlərə məruz qoymasından təəssüfünü açıqlayıb. Qurumun rəsmi nümayəndəsi Mariya Zaxarova qeyd edib ki, KTMT öz nizamnaməsinin məqsəd və prinsiplərinə tam uyğun şəkildə Ermənistan qarşısında bütün öhdəliklərini yerinə yetirib. Öhdəliklərdən söz düşmüşkən, bu ay məlum oldu ki, rəsmi İrəvan qurumun maliyyələşdirilməsində və 2024-cü il büdcəsinin təsdiqində iştirakdan boyun qaçırıb. KTMT-dən Ermənistanın qərarından xəbərdar olduqlarını, lakin qərarın ölkənin birliyə üzvlüyünü dayandırması anlamına gəlmədiyini vurğulayıblar.

***

Əlbəttə, N.Paşinyanın hər bir fikrindəki manipulyativ tonu görmək mümkündür. Həmin tonun müxtəlif elementləri gözə dəysə də, hamısına nəzər salmağa ehtiyac duymur, sonda onun parlamentdə dilə gətirdiyi bir məqamın üzərində dayanırıq. Nikol 44 günlük müharibənin Ermənistan adlı müstəqil dövlətin varlığına son qoymaq məqsədi daşıdığını bildirib. O zaman sual yaranır: müharibəni başlayan kim idi? Əlbəttə, Ermənistan! Paşinyan Xankəndidə “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verib, Şuşanın Cıdır düzündə sərxoşluq etməsəydi, Azərbaycanla danışıqlar prosesini pozduğunu nümayişə çıxarmasaydı, konstruktiv mövqe tutsaydı, savaş baş verməyəcəkdi. Görəsən, baş nazir nə üçün o zaman Ermənistan dövlətçiliyinin məhvi perspektivini fikirləşmirdi? Səbəb sadədir. Bu adam elə bilirdi ki, Qərbdəki ağaları ona kömək göstərəcəklər. Düşünürdü ki, demoktarik Ermənistanın “avtoritar Azərbaycana” qarşı haqsız davası beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənəcək. Özünü demokratiyanın qladiatoru sayırdı.

Dünya “qladiatorun” və ölkəsinin hansı acınacaqlı aqibətlə üzləşdiyini yalnız seyr etməklə, yalançı, heç bir nəticəsi olmayan bəyanatlar səsləndirməklə kifayətləndi. Bu yerdə yadımıza bir lətifə düşür. Həmin lətifədə təyyarədə siqaret çəkən ayıya bunun yolverilməzliyini başa sala bilmirlər. Nə deyirlərsə, ayı “yaxşı edirəm” deyərək bozarır. Axırda təyyarə qəzaya uğrayır və göydə uçan qarğa yerə doğru yumarlanmaqda olan ayıdan uça bilib-bilmədiyini soruşur. Burada ayının “yox” cavabı deyil, qarğanın ayıya dediyi söz maraqlıdır: uça bilmirdinsə, niyə siqaret çəkirdin?

Paşinyan, obrazlı desək, “uça bilmir, amma siqaret çəkməyindən də” qalmır. Bu adamın Prezident Lukaşenkoya cavabında gündəmə gətirdiyi anti-Rusiya xətti və həmin xəttin tərkib hissəsi olan anti-KTMT ritorikasındakı məntiq də bunu deməyə əsas verir. Deməli, qalır Ermənistan adlı təyyarənin qəzaya uğraması. Ancaq qəzadan qurtulmaq üçün Nikolun bir şansı var ki, o da Azərbaycanla danışıqların hazırkı axarına kölgə salmamaq, ötən müddətdə həyata keçirdiyi manipulyativ yanaşmadan uzaq durmaq. Uzaq duracaqmı, bunu zaman göstərəcək. Nəzərə alaq ki, delimitasiya və demarkasiya prosesi yeni başlayıb. Hər şeyin qaydasında getməsi üçün erməni iqtidarı gərək A.Lukaşenkonun Azərbaycanın Qafqazın lideri olmasına dair fikirlərini də qulağında sırğa eləsin.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycanda beynəlxalq “yaşıl” konfrans




**Mayın 23-də Heydər Əliyev Mərkəzi, Azərbaycan Dövlət İqtisad Universiteti, Regional İnkişaf İctimai Birliyi, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin birgə təşkilatçılığı ilə İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların VI Beynəlxalq Elmi Konfransı öz işinə başlayıb. “Yaşıl dünya naminə həmrəylik” ilinə həsr olunmuş və “Dayanıqlı İnkişafın Yeni Dövrü: Yaşıl transformasiya və iqlim maliyyələşdirilməsi” mövzusunda təşkil olunan bu ilki konfrans mayın 26-dək davam edəcək.**



Rəsmi açılışda iştirakçıları salamlayan UNEC rektoru professor Ədalət Muradov beynəlxalq konfransda 39 ölkədən 374 tədqiqatçının iştirak edəcəyini və 42 sessiyada 245 tədqiqat işinin məruzə olunacağını bildirib. Ə.Muradov UNEC-in elmi fəaliyyəti və əldə olunan nəticələr barədə metrik göstəriciləri iştirakçıların diqqətinə çatdırıb. Bildirib ki, “Scopus” bazasında indekslənən elmi əsərlərin 97 faizi, istinad sayının 99 faizi, xarici müəllifli elmi əsərlərin 99 faizi, “Web of Science” bazasında indekslənən elmi əsərlərin 90 faizi, istinad sayının 93 faizi, xarici müəllifli elmi əsərlərin 87 faizi məhz 2014-2024-cü illərin payına düşür. Ə.Muradov “Scimago”da dünya universitetlərinin reytinqinə əsasən, UNEC-in 2023-cü ildə Azərbaycan üzrə 1-ci yerdə qərarlaşdığını vurğulayıb. Q1 kvartilli jurnallarda dərc olunan məqalələrin sayına görə UNEC-in ölkədə lider olduğunu diqqətə çatdırıb.

Elm və təhsil naziri Emin Əmrullayev UNEC tərəfindən ənənəvi olaraq, hər il keçirilən ISCEMR konfransının ölkədə təhsilin və elmin inkişafına təkan verdiyini bildirib. UNEC-də elmi fəaliyyətin artan dinamikasını yüksək qiymətləndirən nazir, Dövlət Proqramı ilə xaricdə təhsil alan gənclərin sayına görə UNEC-in xüsusi olaraq fərqləndiyini deyib.

Türkiyənin Rəqabət Qurumunun rəhbəri Birol Küle iqtisadiyyatların dayanıqlılığının təmin edilməsi məqsədilə ölkələr arasında əməkdaşlığın əhəmiyyətindən danışıb.

RİİB-in təhsil və ekoloji layihələr üzrə koordinatoru Simuzər Fərəczadə iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılması, keyfiyyətli ətraf mühitin formalaşması, yaşıl iqtisadiyyata transformasiya və bu istiqamətdə digər sahələr üzrə görülən işlərdən söz açıb.

Açılış nitqlərindən sonra çıxış edənlərə plaketlər təqdim olunub. Konfrans “Azərbaycan universitetlərində dayanıqlı inkişaf: bərpa olunan enerji və iqlim”, “Gələcəyi istiqamətləndirmək: Dayanıqlı gələcək üçün iqlim dəyişikliklərinin maliyyələşdirilməsində yeniliklər” adlı panel sessiyalarla davam edib.

***XQ***

Replika

# Fransa əkdiyi haqsızlığı biçir

**Özünü demokratik dəyərlərin vətəni, qədim sivilizasiyanın davamçısı hesab edən Fransanın sıravi vətəndaşları son illərdə qorxu və hürkü içində yaşayırlar. Çünki orada elementar insan hüquqları addımbaşı tapdanır. Bu gün “qoca qitə”nin ən “mədəni ölkəsi”ndə qeyri–fransızların, xüsusilə də müsəlmanların öz dini ayinlərini icra etmələri üçün lazımi şəraitin yaradılmaması bir yana, bir çox hallarda onlara qarşı yasaqlar tətbiq olunur. İslamofobiya, türkəfobiya Fransa prezidenti Emmanuel Makronun təfəkküründə, düşüncəsində özünə möhkəm yer eləyib. Rəsmi Parisin Azərbaycana qarşı qərəzli yanaşmasının kökündə də Fransada geniş yayılmış islamofobiya xəstəliyi dayanır.**

“Fransa Avropa qitəsinin ən təhlükəli ölkələri arasında birinci yerdədir”. Belə bir hesabatı Fransanın “Ədliyyə İnstitutu” beyin mərkəzinin direktoru Pyer-Mari Sev təqdim edib. Mərkəzin məlumatına əsasən, bu gün Fransada cinayət indeksi 55,3 faiz təşkil edir. “Bir ölkənin reytinqi nə qədər yüksəkdirsə, sakinləri onu bir o qədər təhlükəli hesab edirlər. Bu, ölkənin təhlükəsizliyi və xüsusən də sakinlərin öz ölkələrində təhlükəsizliyi necə qəbul etdikləri barədə dolğun təsəvvür yaradır”, – deyə direktor bildirib.



*

Fransa XXI əsrdə də işğalçılıq azarından qurtula bilmir, özünün “qara qitə”dəki imperiya siyasətinə “demokratiya donu” geyindirməyə çalışır. Öz evində rahatlıq və sabitlik yarada bilməyən, vətəndaşının təhlükəsizliyini təmin edə bilməyən Makron indi gedib Yeni Kaledoniyada aranı qarışdırmaqla məşğuldur. Arxipelaqa göndərəcəyi hüquq-mühafizə orqanları əməkdaşlarının sayının 3 minə çatdırılacağını “müjdələyən” Fransa prezidenti onların lazım olduğu qədər Yeni Kaledoniyada qalacağını bəyan edib. Dünən arxipelaqa səfəri zamanı Emmanuel Makron rəsmi Parisin Yeni Kaledoniyada prioritetinin “qayda-qanunları bərpa etmək” olduğunu bildirib. Qeyd edək ki, hazırda bu adada fövqəladə vəziyyət rejimi hökm sürür. Makron yerli ictimai-siyasi xadimlərin barrikadaların götürülməsinə çağıracaqları təqdirdə fövqəladə vəziyyətin müddətinin uzadılmayacağını vəd edib.

“Le Monde” qəzeti xəbər verir ki, E. Makron Fransa Ali Komissarlığının Yeni Kaledoniyadakı ofisini ziyarət edərkən arxipelaqa göndərilən legionun “hətta Olimpiya və Paralimpiya Oyunları zamanı da orada qala biləcəyini” vurğulayıb.

Təkcə daxilində deyil, həm də xaric üçün təhlükə ocağına çevrilən Fransanın bəzi mətbuat orqanlarında zaman-zaman Türkiyə ilə bağlı qərəzli yanaşmaların, feyk xəbərlərin şahidi oluruq. Özünün anti-türk, anti-müsəlman mövqeyi ilə seçilən “Charlie Hebdo” jurnalı keçən ilin fevralında qardaş ölkədə baş vermiş dəhşətli zəlzələnin fəsdadlarını – uçan binaların, çevrilmiş avtomobillərin karikaturasını paylaşmışdı. Fransanın təbii fəlakətə, faciəyə insanlıqdan uzaq yanaşması geniş ictimaiyyətin haqlı olaraq hiddətinə səbəb olmuşdu.

Əslində, bütün bunlar Fransanın müstəmləkəçilik siyasətindən, imperialist düşüncə tərzindən irəli gəlir. Rüşeymi 200 il bundan əvvəl qoyulmuş bu düşüncənin daşıyıcılarının müəyyən dövrdə “la mission civilisatrice” adlandırdıqları ideyası var idi. Həmin ideyanın mahiyyəti odur ki, fransızlar, guya, geridə qalmış xalqlara, tayfalara yeni mədəniyyət gətirirlər. Yelisey sarayında əyləşənlər uzun müddət hesab ediblər ki, Afrika və Asiyanın “geridə qalmış” etnik qruplarına “müasir sivilizasiya qaydalarını” aşılamaq Fransanın tarixi missiyasıdır. O, bu məqsədlə getdikləri kənar coğrafiyada həyata keçirdikləri işğalçılıq siyasətinin fəsadlarını, əkdikləri zərərli toxumların məhsulunu indi biçməyə məcburdur. Bunun başqa nəticəsi ola da bilməzdi. Onun xaricdə törətdiyi cinayətlərin indeksi daxildəkindən qat-qat yüksəkdir. Bəli, indi Parisi qazanına tökdüyünü qaşıqlamaq, əkdiyini biçmək kimi acı aqibət izləyir. O, təhlükəni hər an və hər tərəfdən gözləyir. Amma buna görə təqsirkarı kənarda deyil, öz içində axtarmalıdır.

***İ.HƏSƏNQALA***
***XQ***

# İlham Əliyev: postmüharibə dövrünün memarı



## IV MƏQALƏ

**Siyasətçinin xoşbəxtliyi göstərdiyi fəaliyyətdə və tətbiq etdiyi fəzilətdədir.**
**Aristotel**

### Postmüharibə dövrünün ilk mərhələsi

Postmüharibə dövründə uğurlu diplomatiyanın əhəmiyyətli bir məqamı sülh, əməkdaşlıq və təhlükəsizliyin vəhdətində regional geosiyasi mühiti tam konstruktiv məcraya yönəltməklə bağlıdır. Bəlkə də nəzəri təqdimat mürəkkəb və xeyli abstrakt görünür. Lakin praktiki yanaşmanın ümumi xarakteri belədir. Həm də ilk baxışdan abstrakt görünən tezisin çox geniş praktiki bazası mövcuddur. Buraya liderin bütün aspektlərdə konstruktiv, yaradıcı olmaqla yanaşı, dəyişən situasiyada konkret diplomatik gedişlə ümumi istiqaməti qoruya bilmək qabiliyyəti çox önəmlidir. Və bu zaman yaranmış situasiya kənar müşahidəçi üçün aydın olmaya bilər, lakin prosesə daxildən və siyasi mövqedən yanaşanda real mənzərə aydın görünür. Prezident İlham Əliyev II Qarabağ savaşından sonra konseptual olaraq yaratdığı geosiyasi mənzərəni yuxarıda vurğuladığımız şərtlər daxilində addım-addım və inamla reallığa çevirir.

Azərbaycan Prezidenti əsrlərlə bu regionu geosiyasi əsirlikdə saxlayan xətti dağıtmışdır. Atıq, bu, gerçək faktdır. Yəni İlham Əliyev postmüharibə dövründə regional geosiyasətin bazasını neqativ tendensiyalardan təmizləmişdir. Bunun bir neçə əlaməti vardır. Onlardan birincisi və aparıcısı qardaş Türkiyə ilə "bir millət, iki dövlət" kəlamına uyğun strateji müttəfiqliyi beynəlxalq hüquq fonunda daha da genişləndirmək və dərinləşdirməklə bağlıdır. İndi Azərbaycan – Türkiyə əməkdaşlığı özünün tarixi zirvəsindədir. Və həmin yüksəklikdən regionun bütün geosiyasi problemlərini sülh, əməkdaşlıq və təhlükəsizliyin vəhdətində həll etmək imkanları xeyli artmış kimi görünür.

Məsələnin bu aspektinin başqa bir özəl əhmiyyəti vardır. Azərbaycan və Türkiyə "bir millət, iki dövlət" kəlamından çıxış edərək, "bir millət, altı dövlət" kəlamının mükəmməl türk təşkilatının yaradılması forması ilə reallaşmasında ciddi yol qət etmişlər. Bu gedişatın Cənubi Qafqazda sülh, əməkdaşlıq və təhlükəsizliyə sıx qarşılıqlı əlaqədə baxmaqla yeni "regional əməkdaşlıq ruhu"nun formalaşmasına fövqəladə müsbət təsiri olduğuna qətiyyən şübhə yoxdur! Bir daha xatırlatmaq istərdim ki, bu prosesin uğurlu olmasının təməlində İlham Əliyevin sistemüstü şəbəkə diplomatiyası həm konseptual, həm də praktiki aspektlərdə mərkəzi yer tutur!

Digər əlamət İlham Əliyevin faktiki olaraq Ermənistan mövzusunda inqilabi dəyişiklik etməsi ilə əlaqəlidir. II Qarabağ savaşına qədər Azərbaycana qəvi düşmən olan və qələbəsinə tam əmin olan bir dövlət indi Bakının yanında yer almağı özünün milli maraqları üçün daha doğru sayır.

Bu transformasiyanın memarı Azərbaycan Prezidentidir. Mən bilmirəm, tarixdə ikinci belə bir nümunə vardırmı? İşğalçını darmadağın edəsən və ondan tarixi baxımdan çox qısa bir zaman sonra siyasi-diplomatik üsulla ona anladasan ki, Azərbaycanla əməkdaşlıq xilas yolundur. Ermənistanı bir kənara qoyaq, onun güclü havadarlarını belə bu məsələdə diz çökdürmək çox böyük liderlik məharəti tələb edir. İlham Əliyev Azərbaycan dövlətçiliyi, müstəqilliyi və milli qüruru naminə bunu reallaşdırdı!

Azərbaycan Prezidenti faktiki olaraq Rusiya–Avropa–ABŞ–İran dairəsində diplomatik manevrləri ilə onların hər birinin mənfi təsirini neytrallaşdırdı. Rusiyanın təklifini diqqətə almağı bacardı. Avropa Şurasının prezidenti kimi Şarl Mişelin də təşəbbüsünü səmimiyyətlə dəstəklədi, Tehranla əməkdaşlıqdan imtina etmədi. Bu proseslər zamanla sürətlə və dəyişkən ab-havada gedirdi və liderdən böyük məharət, siyasi-diplomatik çeviklik tələb edirdi. İlham Əliyev təkbaşına bu cəbhələrin hər birində masa arxasından qalib ayrıldı.

Məqamı gələndə dövlətinin dönməz iradəsini ortaya qoydu: məsələni Azərbaycanla Ermənistan ikilikdə həll edəcək! Bu gedişin ABŞ və Aİ üçün (xüsusilə, Fransa üçün) hansı diplomatik şok effekti yaratdığını, yəqin ki, Qərb politoloqları bir qədər sonra təsvir edəcəklər. Biz onu hiss etdik, lakin konkretliklər məlum deyildir. Qərb niyə siyasi-diplomatik şoka düşməli idi?

Çünki cəmi bir neçə il öncə müxtəlif açıq və ya gizli toplantılarda ərazisini bölüb necə paylaşmağı müzakirə edən dikbaş siyasilər və diplomatlar qəfil ciddi əks-zərbə aldılar. Ermənistanı və havadarlarını hərb meydanında darmadağın edən müsəlman türk dövləti diplomatiya meydanında da öz şərtini irəli sürdü. Buna Paris, Berlin, Vaşinqton, Brüssel necə dözdü, Allah bilir! Ancaq İlham Əliyev haqqı hüquq və ədalət çərçivəsində liderlik məharəti sayəsində bərpa etdi. İndi Azərbaycanla Ermənistanın öz aralarında sərhəd delimitasiyasını və müəyyən ərazilərin Azərbaycana qaytarılmasını dinc yolla həll etmələrini müəyyən dairələr "quzu kimi" izləyirlər!

Deməli, faktiki olaraq, Ermənistanı düz yola dəvət etməklə və əsasən buna nail olmaqla Azərbaycan Prezidenti mümkün neqativ geosiyasi, siyasi, hərbi və diplomatik təsirləri neytrallaşdırmışdır. Bu, regional geosiyasət üçün böyük töhfədir.

İlham Əliyevin regional geosiyasətin bazasını neqativ tendensiyalardan təmizləməsinin ciddi bir əlaməti də vurğulanmalıdır. Əslində, bu, beynəlxalq aləmin siyasi etirafı kimi də qiymətləndirilə bilər. Belarus Prezidenti A.Lukaşenko Qarabağa səfəri zamanı İlham Əliyevə müraciətlə demişdir ki, "bu regionun taleyi Sizdən asılıdır, buralarda vəziyyəti Siz idarə edirsiniz"! Bu, bizim vurğuladığımız postmüharibə dövrünün sistemüstü diplomatiyasının ilk mərhələsinin tamamı və İlham Əliyevin qələbəsinin etirafı deməkdir!

Onun məntiqi anlamı çox vacibdir. Birincisi, Belarus Prezidenti açıq ifadə edir ki, Azərbaycan yalnız ərazi bütövlüyünü bərpa etməmişdir. Eyni zamanda, regionun geosiyasi yapısını yeniləşdirmişdir. İkincisi, Cənubi Qafqazın geosiyasi yapısı yeniləşmənin artıq ilk mərhələsini başa vurmuşdur ki, onun da başlıca əlaməti Azərbaycanın aparıcı mövqeyə çıxması ilə xarakterizə olunur. Üçüncüsü, son 300 illik tarixdə ilk dəfə olaraq Azərbaycan Respublikası müstəqil dövlət kimi bu regionun sülh, əməkdaşlıq və təhlükəsizliyinin həm yaradıcısı, həm də onun təmin edilməsinin məsuliyyət daşıyıcısı rolunu yerinə yetirir!

Nəhayət, Rusiya faktoru. İlham Əliyev bu böyük qonşu dövləti geosiyasi kontekstdə tamamilə Azərbaycanın haqq mövqeyinə gətirə bilmişdir. Moskva Azərbaycanın regional siyasətini dəstəkləyir və faktiki olaraq onunla eyni mövqedə dayanır. Bu əlamət İlham Əliyevin postmüharibə dövrünün memarı kimi ən ciddi uğurlarından biri sayılmalıdır. Çünki Rusiya əsrlərdir ki, Qafqazda aparıcı geosiyasi güc kimi mövcuddur və ilk dəfədir Kreml bu regionda Azərbaycana münasibətini ən yüksək səviyyədə müsbət istiqamətdə dəyişmişdir!

### Birinci mərhələnin yekunu

Əlbəttə, Cənubi Qafqazda geosiyasi proseslərin məntiqini keyfiyyətcə dəyişmək mürəkkəb iş olmaqla yanaşı, bir neçə mərhələdən ibarətdir. Söhbət Azərbaycanın qələbəsi ilə başlayan və postmüharibə dövrü adlanan hadisədən gedirsə, vurğuladığımız məqam daha aydın olur. Çünki postmüharibə dövrü üçün hərbi toqquşmaları istisna etməklə sülh, əməkdaşlıq və təhlükəsizliyin vəhdətində yeni geosiyasi konfiqurasiya yaratmaq çoxpilləli proses ola bilər.

Bu prizmada baxanda yuxarıda vurğuladığımız əlamətlər postmüharibə dövrünün ilk mərhələsinin geosiyasi aspektdə yekunlaşdığını ifadə edir. Bu mərhələdə İlham Əliyev qaşısına qoyduğu bütün məqsədlərə çatmışdır. Onları sülh, əməkdaşlıq və təhlükəsizlik istiqamətləri fonunda xarakterizə etmək olar.

II Qarabağ savaşından sonra region dəfələrlə yeni hərbi toqquşmaların astanasına gəldi. Xüsusilə, Fransa tərəfindən atılan təhlükəli addımlar Ermənistanda revanşistləri təhrik etməyə başladı. Rəsmi İrəvan da bunun fonunda özünü ictimaiyyət qarşısında haqlı göstərmək üçün müəyyən təxribatlara əl atdı. Bu, bir neçə dəfə təkrar olundu. Bəzi politoloqlar proqnozlaşdırırdılar ki, müharibə nə zaman başlayacaq və hansı nətcələri ola bilər.

Hətta Qərbin siyasi dairələri də bu ssenarini istisna etmədilər. Məqsəd nə idi? Əsas məqsəd Azərbaycanın yaratdığı geosiyasi ab-havanı dəyişmək və eyni zamanda, regionda getdikcə əsas gücə çevrilən Azərbaycan – Türkiyə müttəfilqiyini ya dağıtmaq, ya da arxa plana atmaq. Hər iki istiqamətdə əks tərəfin addımlarını neytrallaşdırmaq məsuliyyətini Azərbaycan öz üzərinə götürdü. Bu kontekstdə İlham Əliyev "yumşaq güc"lə "sərt gücü" bir-birinə uyğunlaşdırmaq məharəti göstərdi. Azərbaycan Prezidenti əsas olaraq "yumşaq güc" mövqeyindən çıxış etdi, lakin əsl məqamında "dəmir yumruğ"unu da işə saldı. Rəsmi İrəvan son 100 ildə ilk dəfə rəsmi etirf etdi ki, "Azərbaycanla savaşa bilməz, savaş olsa, İrəvan da əldən gedər. Buradan çıxardığı əsas nəticəni də N.Paşinyan iqtidarı erməni cəmiyyətinə və siyasi dairələrinə bəyan etdi: indi əlimizdə olanı saxlasaq, udmuş olarıq!

Aydın görünürdü ki, hətta, Qərbin ən güclü siyasi dairələrinin dəstəklədiyi təxribat xarakterli addımların qarşısında Azərbaycan Prezidenti İlham Əliyevin liderlik zəkası, diplomatik məharəti və siyasi iradəsi dayanmışdır. Avropa İttifaqının qondarma "mülki missiyası" da həmin aqressiv dairələri xilas etmədi. Bu "missiya" formal olaraq bir neçə bəyanat verdi, lakin Azərbaycanın ağıllı mövqeyinə qarşı heç bir real fəaliyyət göstərə bilmədi. İndi onlar, deyəsən, tamamilə yaddan çıxmışdır.

Bunların fonunda Prezident İlham Əliyevin postmüharibə dövründə yeni geosiyasi struktur qurmaq yolunda əhəmiyyəti olan bir təklifi lap yerinə düşür. Azərbaycan Prezidenti təklif etmişdir ki, ATƏT-in yaratdığı və vasitəçilik etməli olduğu bütün qurumlar ləğv edilsin. Bura Minsk qrupundan tutmuş artıq keçmişdə qalmış münaqişə ilə əlaqədar formalaşdırılan bütün qurumlar daxildir. İlham Əliyevin bu tezisi geosiyasi aspektdə regionun postmüharibə dövründə yenidən strukturlaşması kontekstində çox əhəmiyyətlidir. Hətta bu təklifi geosiyasi aspektdə postmüharibə dövrünün I mərhələsinin əsas yekunlarından biri kimi xarakterizə edə bilərik! Çünki, bu, faktiki olaraq kənar qüvvələrin Cənubi Qafqazın geosiyasi düzəninə hər hansı rəsmi olaraq qarışmasının sonu deməkdir. Zatən, regionda Qərbin bir-iki formal qurumundan başqa kənar təşkilat yoxdur. A.Lukaşenkonun dediyi kimi, burada vəziyyətin yaradıcısı və idarəedicisi Azərbaycan Prezidentidir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Erməni kilsəsinin "azar bazarı" bağlanır

**(əvvəli 1-ci səhifədə)**

Hələlik yolların bağlanması və nəqliyyat vasitələrinin hərəkətinin dayandırılması ilə müşahidə olunan itaətsizlik tədbirlərinə fasilə verilib. Lakin "Vətən naminə Tavuş" hərəkatının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan siyasi qüvvələrin nümayəndələri, mədəniyyət xadimləri, hüquqşünaslar və ehtiyatda olan hərbi qulluqçularla məsləhətləşmələr aparır, gələcək planlarını müzakirə edir. O, mayın 23-də bir qrup iqtisadçı və təhsil sahəsinin nümayəndəsi ilə görüşüb. Görüşlər barədə Baqrat hər axşam İrəvanın mərkəzində yerləşən Müqəddəs Anna kilsəsinin həyətində tərəfdarlarına məlumat verir. Keçirdiyi məsləhətləşmələrdən sonra, "srbazan" elan edib ki, mayın 26-na "böyük mitinq" planlaşdırılıb. Mitinqdə "mübarizənin yol xəritəsi" təqdim ediləcək.

Bu arada "Hraparak" qəzeti müxalif siyasi qüvvələr arasında B.Qalstanyanın baş nazirliyə namizədliyinin irəli sürülməsi ilə bağlı razılaşma əldə edildiyinə dair məlumat yayıb. Nəşr bildirib ki, guya, Baqratın özü ehtimal edilən hakimiyyət dəyişikliyində müvəqqəti də olsa, baş nazir olmaq və gələcək seçkilərdə namizədliyini irəli sürmək istəmir: "Qalstanyanın namizədliyi ilə bağlı siyasi qüvvələrin əldə etdikləri konsensusa qədər həm siyasi sferadan, həm də dini kəsimdən bir sıra şəxslər müzakirə edilib. Bu zaman xüsusilə, sabiq ombudsman Arman Tatoyanın, üçüncü ordu korpusunun keçmiş komandiri, general-mayor Qriqori Xaçaturovun, eləcə də erməni apostol kilsəsinin Şirak yeparxiyasının rəhbəri Mikael Acapaxyanın və digərlərinin adları çəkilsə də, müzakirələr zamanı heç bir namizədlə bağlı konsensus əldə olunmayıb. Məlum olub ki, təkcə Tavuş yeparxiyasının rəhbəri ilə bağlı fikir ayrılığı yoxdur. Buna görə də onun namizədliyi ilə razılıq əldə edilib".

Hakimiyyətdə olduğu dövrdə Ermənistanda çox cinayətlər törətmiş, Qarabağdakı separatizm hərəkatının və Xocalı soyqırımının fəal iştirakçısı, əli dinc azərbaycanlılarla yanaşı, erməni xalqının da qanına batmış (2008-ci il martın 1-dən 2-nə keçən gecə İrəvanda müxalifətin kütləvi etiraz aksiyasının dağıdılması nəticəsində az 10 nəfər həlak olmuş, 230-dan çox insan yaralanmışdır–S.H.) Serj Sarkisyan da bugünlərdə zühur edib. Törətdiyi əməllərə görə ədalət mühakiməsinə cəlb edilən Sarkisyanı jurnalistlər məhkəmə binası önündə, necə deyərlər, yaxalayıblar. O, "Vətən naminə Tavuş" hərəkatının geniş vüsət aldığını və bütün imkanlardan ağılla istifadə olunarsa, uğur qazanacağını bildirib.

Sarkisyan Qalstanyanın baş nazir postuna namizədliyini dəstəkləyib-dəstəkləmədikləri barədə suala cavab olaraq deyib: "Mən bu məsələ ilə bağlı yenidən fikir



bildirmək istəmirəm. Biz öz mövqeyimizi "Respublika" partiyasının icra orqanının yaydığı bəyanatda açıqlamışıq. Eyni zamanda, bizim mövqeyimiz dəfələrlə partiyadaşlarımız tərəfindən səsləndirilib. Biz arxiyepiskop Baqrat Qalstanyanın baş nazir postuna təklif etdiyi şəxsin namizədliyini dəstəkləyəcəyik".

Sabiq prezident keşişin başçılıq etdiyi hərəkatı tam dəstəklədiklərini də bildirib. Ancaq onun açıqlamasının sonrakı hissəsindən belə məlum olur ki, bu, sözdə dəstəkdir. Jurnalistlərin mayın 26-da keçiriləcək aksiyada çıxış edib-etməyəcəyinə dair sualına cavabında Sarkisyan bildirib: "Tribunaya çıxmağa nə arzum var, nə də həvəsim, amma buna ehtiyac olsa... Bu hərəkatın uğur qazanması və hakimiyyət dəyişikliyinin baş verməsi üçün hər şeyə hazırıq".

Olduqca hiyləgər şəxs kimi xarakterizə olunan Sarkisyan yenə də biclik işlədib. Serj hazırkı hakimiyyət nümayəndələrinin Baqratın hərəkatı vasitəsilə Qarabağ klanının geri qayıtmağa çalışdığına dair açıqlamalarını bu sözlərlə inkar etməyə çalışıb: "Onlar əvvəlki hakimiyyətin geri dönməsindən qorxurlar – qoy xaç çevirsinlər, qorxularına qalib gəlsinlər, soyuq su içsinlər, nə istəyirlərsə, etsinlər, amma bizim geri qayıtmaq arzumuz yoxdur. Dəfələrlə bəyan etmişik ki, bizim heç bir gözləntimiz yoxdur, bizə hakimiyyət lazım deyil. Biz, sadəcə, hakimiyyət dəyişikliyi ideyasını dəstəkləyirik".

Hayastanda fəaliyyət göstərən "Məlumatlı vətəndaşlar ittifaqı" adlı qeyri-hökumət təşkilatının rəhbəri Daniel İoannisyan isə S.Sarkisyanın Ermənistan–Azərbaycan şərti sərhədində münaqişəli vəziyyətin davam etməsini istədiyini bildirib. Onun sözlərinə görə, Sarkisyan Ermənistanın Rusiyadan asılı vəziyyətdə qalmasında da maraqlıdır: "Sual yaranır ki, Serj Sarkisyan, bəzi keçmiş diplomatlar və çevrələri niyə sərhədlərin demarkasiyası ilə bağlı qeyri-müəyyənliyin tərəfdarıdırlar? Cavab sadədir: Onlar Ermənistanın əbədi münaqişə vəziyyətində və Rusiyadan asılı vəziyyətdə qalması, dövlət sərhədinin olmaması, həmişə hücum təhlükəsi ilə üzləşməsi üçün bunu istəyirlər. İstəyirlər ki, İrəvan və Bakı öz məsələlərinin həllində həmişə xarici "xilaskarlar"ın vasitəçiliyinə ehtiyac duysunlar. Eyni zamanda, onlar iqtidarın "yanlış addımlar"ından istifadə edərək hakimiyyəti ələ keçirmək arzusundadırlar".

Siyasi icmalçı David Stepanyan hesab edir ki, keşişin arxasında Ermənistanın keçmiş rusiyapərəst liderləri dayanır. Onun mübarizəyə qatılmasının səbəbi isə sərhədin delimitasiya və demarkasiyası ilə bağlı deyil: "Qalstanyan yolla hərəkət edərkən jurnalistlərə deyirdi ki, siyasi tələbləri yoxdur. Respublika meydanına çatandan sonra, baxıb gördü ki, meydana 31 min adam yığılıb. O, belə olan təqdirdə Paşinyanın istefasını tələb etmək qərarına gəldi və ultimatum irəli sürdü. Mən hesab edirəm ki, burada ciddi siyasi məqsədlər gizlənir". Politoloqun sözlərinə görə, arxiyepiskopun və onu əhatə edən siyasi qüvvələrin məqsədi Ermənistanda Rusiyanın təsirini bərpa etməkdir.

Hakimiyyət isə ölkədəki son etiraz aksiyalarında xüsusi canfəşanlıq edən kilsə ilə bağlı müəyyən addımlar atmağı düşünür. Hər halda Nikol Paşinyanın parlamentdəki son açıqlamasından gəlinən qənaət budur. Baş nazir kilsənin Ermənistanda ictimai fikrə ən böyük təsir agenti olduğunu və bunun aradan qaldırılacağını deyib. Nikol vurğulayıb ki, yaxın iki-üç ay ərzində kilsənin ictimai rəyə təsirlərinin aradan qaldırılması üçün qətiyyətli tədbirlər görüləcək: "Ermənistanda tarix boyu din xadimləri gedib xaricdəki dini mərkəzlərdə təhsil alıb, qayıtdıqdan sonra isə agentlərə çevriliblər. Görünən odur ki, həmin ənənə indi də dəyişməyib. Lakin biz yaranmış problemi iki-üç ay ərzində həll edəcəyik".

Dünən parlamentdə keçirilən brifinqdə çıxış edən hakim "Mülki müqavilə" fraksiyasının katibi Artur Ovannisyan bildirib ki, kilsənin vergiyə cəlb edilməsi məsələsi bu yaxınlarda nəzərdən keçirilməyə başlanmayıb. "Ümumiyyətlə, biz uzun müddətdir ki, bütün qaranlıq fondların kölgədən çıxarılması məsələsini müzakirə edirik" – deyən Ovannisyan əlavə edib ki, düzdür, erməni apostol kilsəsinin xüsusi mövqeyi var, lakin Ermənistandakı demokratik dəyişiklikləri nəzərə alsaq, o da kölgədən çıxmalıdır.

Qeyd edib ki, xristianlıq son nəticədə oğurluğun, korrupsiyanın, kölgənin olmamasından ibarətdir. Kilsə də bu məntiqi rəhbər tutmalı və bunun nəticəsində korrupsiya təzahürlərinin baş verə biləcəyi vəziyyət yaratmamalıdır.

"Mülki müqavilə"nin deputatı Arusyak Culakyan əlavə edib ki, dövriyyənin hamı tərəfindən görünməsi dövlət üçün vacibdir. Ancaq kilsə dövlət və xalq üçün şəffaf olmağa hazır deyil.

Göründüyü kimi, Paşinyan iqtidarı atdığı ardıcıl addımlarla müxalifət təmsilçilərini fakt qarşısında qoyub, onların arqumentlərini əllərindən alıb. Getdikcə hayların daha böyük hissəsi müxalifətin gerçək məqsədinin nə olduğunu anlamağa başlayıb. Onlar başa düşürlər ki, radikal müxalifətin hakimiyyətə qayıdışı üzləşdikləri problemləri nəinki həll edəcək, əksinə, onu birə-beş artıracaq. Eyni zamanda, hiss olunur ki, Paşinyanın hayları, necə deyərlər, ayıltmaq istiqamətində səyləri nəticə verir. Baş nazirin "tarixi" və müasir Ermənistan mövzusunda fikirləri getdikcə daha çox insan tərəfindən qəbul edilir.

**Ermənistandakı proseslərin gələcəyi ilə bağlı fikirlərini bölüşən Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru Fərhad Məmmədov "XQ"yə bildirdi ki,** proses artıq yekunlaşmağa doğru gedir və Paşinyanın radikalları məğlub etdiyini demək mümkündür. O, öz fikirlərini bununla əsaslandırdı ki, proses nəinki genişlənmədi, əksinə zəifləyən xətt üzrə getdi: "Digər tərəfdən şərti sərhədin



Qazax rayonu ilə Tavuş vilayəti istiqamətində demarkasiya işləri artıq yekunlaşıb. Radikallar bunun qarşısını ala bilmədilər. Onların uğursuzluğa düçar olacaqları əvvəldən məlum idi. Çünki hakimiyyəti devirmək üçün böyük etirazçı qüvvəyə ehtiyac var idi. Söhbət yüz mindən çox insandan gedir. Onlar dövlət qurumlarının işini iflic vəziyyətə salır və hakimiyyət də gec-tez belə böyük qüvvə ilə hesablaşmağa məcbur olur".

F.Məmmədov qeyd etdi ki, radikal müxalifət Paşinyanın 6 il öncə etdiyini təkrarlamaq istədi, amma buna nail ola bilmədi: "Paşinyan hakimiyyətə gəldiyi vaxt Sarkisyanın partiyası parlamentdə çoxluqda idi. Amma həmin çoxluq Paşinyanı baş nazir seçmək məcburiyyətində qaldı. Paşinyan onları buna meydandan məcbur etdi. Nikol yalnız 6 aydan sonra – 2018-ci ilin dekabrında seçki nəticəsində parlamentdə çoxluq əldə etdi. Altı ay ərzində isə Paşinyan Sarkisyan tərəfdarlarının çoxluq təşkil etdikləri parlamentdə deputatları qorxudaraq istədiyi qərarı qəbul etdirirdi. Çünki onun bir sözü ilə arxasında dayanan 100 min nəfərlik qüvvə küçələrə çıxardı".

Mərkəz rəhbəri qeyd etdi ki, Baqratın hərəkatı zamanı isə bu böyüklükdə qüvvə İrəvan küçələrində gözə dəyməyib. Yalnız bir dəfə – mayın 9-da 25–30 min nəfər paytaxtın mərkəzi meydanına toplaşıb. Sonrakı günlərdə isə bu sayda əhalini bir yerə yığmaq mümkün olmayıb. Bu səbəbdən heç katolikos özü də bununla bağlı rəsmi şəkildə bəyanatlar verməyib. Aksiyalar kilsə tərəfindən Tavuş yeparxiyası rəhbərinin şəxsi təşəbbüsü kimi qələmə verilib. Politoloq düşünür ki, proses yaxın vaxtlarda səngiyəcək.

***Səxavət HƏMİD***
***XQ***

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 266** **Bakı şəhəri, 20 may 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 aprel tarixli 140 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 aprel tarixli 140 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 487 (Cild I); 2024, № 2, maddələr 198, 209) ilə təsdiq edilmiş "Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** "5. Texniki və texnoloji ixtisaslar qrupu" hissəsinə aşağıdakı məzmunda 5.75-ci bənd əlavə edilsin:

"5.75. 040575 Uçan aparatların texniki istismarı".

**2.** Aşağıdakı məzmunda 8-ci hissə əlavə edilsin:

"8. Xüsusi təyinatlı ixtisaslar qrupu

8.1. XTO 040801 Müdafiə fəaliyyəti (sahələr üzrə)".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 267** **Bakı şəhəri, 20 may 2024-cü il**

***"Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanlarının təşkili və keçirilməsi, qiymətləndiricinin ixtisas şəhadətnaməsinin forması və verilməsi Qaydaları"nın təsdiq edilməsi və ixtisas imtahanlarında iştirak etmək üçün ödənişin məbləğinin müəyyən edilməsi haqqında***

"Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublika-sının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2443 nömrəli Fərmanının 2.3.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanlarının təşkili və keçirilməsi, qiymətləndiricinin ixtisas şəhadətnaməsinin forması və verilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** İxtisas imtahanlarında iştirak etmək üçün ödənişin məbləği 98 (doxsan səkkiz) manat müəyyən edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 268** **Bakı şəhəri, 20 may 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli və "Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 30 aprel tarixli 155 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Məktəbə-qədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 909-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə" 1999-cu il 15 aprel tarixli 122 nömrəli, "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 19 iyun tarixli 1471 nömrəli, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2238 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1000 (Cild I); 2024, № 1, maddə 83) ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 5.6.2-ci yarımbəndində "attestasiyadan" sözü "sertifikatlaşdırmadan" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 155 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 501 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 mart tarixli 153 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisə-lərində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənddə "və idarəetmə fəaliyyəti ilə" sözləri "fəaliyyətlə" sözü ilə əvəz edilsin;

2.2. 1.4.3-cü yarımbənddə "5 (beş)" sözləri "3 (üç)" sözləri ilə əvəz edilsin;

2.3. aşağıdakı məzmunda 1.5-ci bənd əlavə edilsin:

"1.5. 60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaş-dırmada iştirakı könüllüdür.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 269** **Bakı şəhəri, 21 may 2024-cü il**

"Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan

Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və "Qiymətləndirmə standartları və normaları, peşəkar qiymətləndiricilərin hazırlanması Qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 27 iyun tarixli .107 nömrəli Qərarının ləğv edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli 182 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 86-cı hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci abzasın ikinci cümləsində "səriştəli şəxslərin rəyinə əsasən" sözləri "qiymətləndirici tərəfindən" sözləri ilə əvəz edilsin;

1.2. beşinci abzasın ikinci cümləsində "Qiymətləndiricinin əməyinin haqqını" sözləri "Qiymətləndirməyə görə xidmət haqqını" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 aprel tarixli 69 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4 (II kitab), maddə 211 (Cild I) ilə təsdiq edilmiş "Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə"nin 2.2-ci bəndinin ikinci cümləsinə "hesabatda" sözündən sonra "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.2-ci maddəsində göstərilən məlumatlarla yanaşı" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 aprel tarixli 66 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 392 (Cild I); 2024, № 1, maddə 105) ilə təsdiq edilmiş "Karantin rejiminin tətbiqi və ya zərərli orqanizmlərin ləğvi, xüsusi təhlükəli heyvan xəstəliklərinin profila-ktikası, diaqnostikası, müalicəsi və ləğvi zamanı hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın əvəzinin ödənilməsi Qaydaları"nın 3.1-ci və 4.1-ci bəndlərində "qiymətləndirmə fəaliyyəti ilə bağlı xərclər də" sözləri "qiymətləndirməyə görə xidmət haqqı da" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 avqust tarixli 343 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1450 (Cild I); 2024, № 2, maddə 209) ilə təsdiq edilmiş "Özünüməşğulluğa cəlb olunmuş şəxsdən geri alınmış əmlakın açıq hərracda satılması Qaydası"nın 3.16-cı bəndində "qiymətləndirilməsi və ekspertizadan keçirilməsi ilə bağlı xərclər" sözləri "ekspertizadan keçirilməsi ilə bağlı xərclər və qiymətləndirməyə görə xidmət haqqı" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 516 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1617 (Cild I) ilə təsdiq edilmiş "Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.4-cü bəndin ikinci cümləsinə "əmlakın" sözündən sonra "məcburi" sözü əlavə edilsin;

5.2. 2.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.5. Qiymətləndirməyə görə xidmət haqqı "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 17.2-ci maddəsinə uyğun olaraq ödənilir.";

5.3. 2.7-ci bəndə "hesabatda" sözündən sonra "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.2-ci maddəsində göstərilən məlumatlarla yanaşı" sözləri əlavə edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 dekabr tarixli 484 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1819 (Cild I) ilə təsdiq edilmiş "Radiotezliklərin müddətli ayrılmasına keçid ilə əlaqədar olaraq, radiotezlik istifadəçilərinə vurulan zərərə görə kompensa-siyanın verilməsi şərtləri və mexanizmi"nin 3.4.4-cü yarımbəndində "edilməsində əlavə mütəxəssis rəyinə ehtiyac" sözləri "edilməsi zərurəti" sözləri ilə əvəz edilsin.

**7.** "Qiymətləndirmə standartları və normaları, peşəkar qiymət-ləndiricilərin hazırlanması Qaydaları haqqında" Azərbaycan Respub-likası Nazirlər Kabinetinin 2000-ci il 27 iyun tarixli 107 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 472 (Cild I) ləğv edilsin.

**8.** Bu Qərar 2024-cü il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 270** **Bakı şəhəri, 22 may 2024-cü il**

***"Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 mart tarixli 133 nömrəli, 3 aprel tarixli 196 nömrəli və 1 may tarixli 234 nömrəli qərarları) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"-nin cədvəlinin 24-1-ci hissəsinin "cəmi" sütununda "22" rəqəmləri "24" rəqəmləri ilə, "ərazi və yerli bölmələr üzrə" sütununda "11" rəqəmləri "13" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 271** **Bakı şəhəri, 22 may 2024-cü il**

***"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin qurumun hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 896-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 25 iyul tarixli 622 nömrəli, "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2003-cü il 5 iyun tarixli 878 nömrəli, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2013-cü il 25 noyabr tarixli 38 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2224 nömrəli Fərmanının 5.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin qurumun hesabına köçürülən vəsaitdən istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 273** **Bakı şəhəri, 22 may 2024-cü il**

***"Ev təsərrüfatlarının uçotu Qaydası"nın təsdiq edilməsi haqqında***

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1129-VIQD nömrəli Qanununun tətbiqi və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 162 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 aprel tarixli 36 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ev təsərrüfatlarının uçotu Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2024-cü ilin iyun ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| Baş nazirin birinci müavini<br>Eyyubov Yaqub Abdulla oğlu | 3 |
| Baş nazirin müavini<br>Əhmədov Əli Cavad oğlu | 4 |
| Baş nazirin müavini<br>Mustafayev Şahin Abdulla oğlu | 5 |
| Aparatın rəhbəri<br>Məmmədov Rüfət Tofiq oğlu | 6 |
| İqtisadiyyat şöbəsinin müdiri<br>Əmiraslanov Azər Kamal oğlu | 7 |
| Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri<br>Rüstəmli Ruslan Rüstəm oğlu | 10 |
| Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri<br>Paşayev Zakir İlqar oğlu | 11 |
| Hüquq və qanunvericilik şöbəsinin müdiri<br>Qasımlı Xalid Akif oğlu | 12 |
| Sosial məsələlər şöbəsinin müdiri<br>Rəhimov Niyazi Süleyman oğlu | 13 |
| Humanitar məsələlər şöbəsinin müdiri<br>Həbibbəyli Ərəstü İsa oğlu | 14 |
| Sənaye və energetika şöbəsinin müdiri<br>Hacızadə Elşən Mahmud oğlu | 20 |
| Aqrar və ekologiya şöbəsinin müdiri<br>Qasımov Lətif Cəfər oğlu | 21 |
| Regionların inkişafı şöbəsinin müdiri<br>Məcidov İlkin Sabir oğlu | 24 |
| Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri<br>Mustafayev Feyruz Rəvayət oğlu | 25 |
| Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri<br>Pənahov Musa Sədi oğlu | 27 |
| Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri<br>Məmmədov Anar Rəhim oğlu | 28 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# Bakıda "Türk mətbəxi həftəsi"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə qardaş ölkənin Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hər il mayın 21-dən 27-dək bütün dünyada "Türk mətbəxi həftəsi" keçirilir.**

Həftə çərçivəsində mayın 23-də Türkiyənin Azərbaycandakı səfirliyində də tədbir təşkil olunub. Tədbirdə tanınmış mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.



Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı ölkəsinin zəngin ənənələrindən danışıb. Səfir vurğulayıb ki, "Türk mətbəxi həftəsi" ölkəmizin ənənələrini, zəngin mətbəxini dünyaya tanıdan bir nümunədir. C.Bağçı Egey bölgəsinin təamlarından bəhs edib və bölgənin zeytun və pendirləri, tarhana şorbası, paxlalı püresi və digər ləzzətli yeməkləri ilə məşhur olduğunu deyib.

Tədbirin sonunda Egey mətbəxinin təamları təqdim olunub.

***XQ***

# Orta Dəhliz – Mərkəzi Asiya və Avropanın ortaq yolu




*(əvvəli 1-ci səhifədə)*

Forumda ABŞ hökuməti tərəfindən Xəzər regionunun iqtisadi və strateji əhəmiyyətinin yüksək dəyərləndirildiyi bildirilib. Bu fikrin təsdiqi olaraq son 2 il ərzində ABŞ-ın Xəzər regionu ilə ticarət dövriyyəsində idxal-ixracın hər biri 20 milyard dollar olmaqla 40 milyard dollar təşkil etdiyi vurğulanıb və Xəzər regionu boyunca ticarət əlaqələrinin genişləndirilməsi ilə gələcəkdə bu göstəricinin daha da artacağı diqqətə çatdırılıb.

Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim ölkəmizin Orta Dəhlizlə bağlı çoxtərəfli, üçtərəfli və ikitərəfli formatda iş apardığını bildirib. Səfir daha sonra Orta dəhlizin tarixi İpək yolunun bir hissəsi olduğunu qeyd edib: “Biz Orta Dəhlizə tək məhsulların daşınması perspektivindən baxmamalıyıq. Azərbaycan Xəzər–Avropa İttifaqı Yaşıl Enerji Dəhlizi təklifi ilə çıxış edir. Bu təklif ABŞ və Aİ tərəfindən müsbət qarşılanır. Bu da təbii ki, Orta Dəhlizdir, lakin Xəzər dənizinin bərpaolunan enerji potensialı ilə bağlıdır. Bu dəhlizlə biz Xəzər dənizinin külək enerjisindən istifadə edərək elektriki Avropa ölkələrinə ixrac edə bilərik. Azərbaycan bu istiqamətdə artıq Gürcüstan, Rumıniya və Macarıstanla anlaşma memorandumu imzalayıb”.

Yeri gəlmişkən, mütəxəssislərin fikrincə, Azərbaycan Xəzər dənizində külək enerjisi üzrə yüksək potensiala malikdir. Qiymətləndirməyə görə, Xəzər dənizinin respublikamıza məxsus hissəsində külək enerjisinin ümumi texniki potensialı 157 QVt (dayazsulu hövzələrdə 35 QVt və dərinsulu hövzələrdə 122 QVt) səviyyəsindədir. Bu potensialın hərəkətə gətirilməsi baxımından Prezident İlham Əliyevin “Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında” 2019-cu il 29 may tarixli sərəncamı xüsusi diqqət çəkir. Adıçəkilən sərəncamla qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi məqsədilə sahəyə özəl, o cümlədən xarici investisiyaların cəlb edilməsi istiqamətində Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası ilə “Azərbaycanda dənizdə külək enerjisinin inkişafı üzrə yol xəritəsi” hazırlanması bunun bariz ifadəsidir.

Xəzər dənizinin külək enerjisindən yararlanaraq elektrikin Avropa ölkələrinə ixrac edilməsinə gəldikdə isə qeyd edə bilərik ki, keçən ilin noyabr ayında Macarıstanın paytaxtı Budapeşt şəhərində “Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” imzalanıb. Ekspertlər tərəfindən “Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi” təşəbbüsünü yüksək dəyərləndirərək adları çəkilən hər iki dənizi birləşdirən marşrutlarla Xəzərin “yaşıl enerji” potensialının Avropada təchizatın təhlükəsizliyinin gücləndirilməsinə və təmiz enerji keçidinə yönələn bir strateji layihə olduğu bildirilib.

Ümumiyyətlə, bu layihə ötən müddətdə Azərbaycanın “yaşıl enerji”nin təchizatçısına çevrilmək planlarının tərkib hissə kimi diqqət çəkib. Bu dəhlizlə 4 QVt həcmində “yaşıl enerji”nin ixracı məqsədilə dənizdə sektorlar müəyyənləşdirilib, quruda ərazilər ayrılıb və növbəti proseslərə start verilib. Respublikamızın “yaşıl enerji” tərəfdaşlığı ilə bağlı sözügedən məqsədin reallaşdırılması üçün bərpaolunan mənbələrdən enerji istehsalı, bu enerjinin ötürülməsi və satışı istiqamətlərində sıx koordinasiya olunmuş fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulub.

**_Vaqif BAYRAMOV_**
**_XQ_**

## Ekspert rəyi



**Emin BAĞIROV,**
**iqtisadi şərhçi**

Vaşinqtonda Xəzər Siyasət Mərkəzi tərəfindən təşkil olunmuş 8-ci Trans-Xəzər Forumunda iştirak edən Avropa Komissiyası Beynəlxalq Tərəfdaşlıq üzrə Baş direktoru Henrik Hololeyinin sözlərinə görə, son bir ildə Orta Dəhlizlə bağlı əhəmiyyətli inkişafın şahidi olmaqdan məmnun olduğunu bildirib: “Bu dəhliz, həqiqətən, yeni İpək yolu olmaq istiqamətində inkişaf edir. Mərkəzi Asiya və Avropa arasında çox vacib körpü rolunu oynayır. Təbii ki, Azərbaycan bu layihənin mərkəzindədir. Belə ki, Xəzər dənizinin şərq tərəfindən gələn bütün yollar Azərbaycandan keçməlidir. Burada Ələt limanının, Bakı–Tbilisi–Qars dəmiryol xəttinin həcmi xüsusi rol oynayır”.

Avropa Komissiyası rəsmisi isə bildirib ki, bu layihə 10-dan çox ölkəni, o cümlədən Avropa ölkələrini və Ukraynanı bir araya gətirir: “Həmçinin Orta Dəhliz kimi tanınan bu layihə siyasi gündəlikdə əhəmiyyətli yerə malikdir. Bu istiqamətdə bir çox işlər görülüb və görülməkdə davam edir. Aİ bu xəttin Avropa ilə Asiya arasında müasir, davamlı, sərfəli və səmərəli bağlantı olması üçün tərəflərlə işləməyə davam edir”.

Göründüyü kimi, çıxışlarda Orta Dəhlizin inkişafında Azərbaycanın rolu yüksək qiymətləndirilir, eyni zamanda, bu istiqamətdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı–Tbilisi–Qars dəmiryol xəttinin (BTQ) önəmi diqqətə çatdırılır.

Qeyd edək ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı 2015-ci ildə Bakı Limanının bazasında qurulub. Yük, neft və bərə terminallarından ibarət infrastrukturun nizamnamə kapitalı 16 min manat olub. 2018-ci il mayın 14-dən etibarən isə Prezident İlham Əliyevin iştirakı ilə açılışı reallaşan yeni Bakı Limanının 1-ci fazada yükaşırma potensialı 15 milyon tona, o cümlədən 100 min TEU konteynerə çatdırılıb. İkinci fazanın yekunlaşdırılmasından sonra isə limandan ildə 25 milyon tona qədər yükün aşırılacağı, 500 min TEU konteynerin keçə biləcəyi planlaşdırılıb.

Prezident İlham Əliyev müsahibələrinin birində Azərbaycanın son 10 il ərzində Xəzər dənizində ən böyük ticarət limanlarından birini inşa etdiyini bildirib. Dövlətimizin başçısı daha sonra hazırda ölkəmizin regionun əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevrildiyini, bütün yol infrastrukturu kimi, Bakı Limanının da imkanlarının genişləndirilməsi zərurətinin yarandığını diqqətə çatdırıb.

“Şərq–Qərb” və “Şimal–Cənub” beynəlxalq nəqliyyat qovşaqlarının kəsişməsində yerləşən, yüksək texniki imkanlara malik, əməliyyatlar sahəsində nümunəvi rəqəmsal və “yaşıl həllər” tətbiq olunduğu limanın yükaşırma həcmi hər il artır. Eyni zamanda, dünyada formalaşan yeni reallıqlar fonunda tranzit dövlət kimi Azərbaycana getdikcə böyük tələb formalaşır və bu amil də ölkəmizin ən böyük dəniz qapısı, logistika mərkəzi olan Bakı Limanına yüklərin cəlbini çoxaldır.

Orta Dəhlizin inkişafında BTQ dəmiryol xəttinin oynadığı rola gəldikdə isə qeyd edə bilərik ki, bu infrastruktur region ölkələrinin ticarət əlaqələrinin artırılmasında, yükdaşımalarda vaxta və vəsaitə qənaət olunmasında mühüm əhəmiyyətə malikdir. BTQ dəmiryolu vasitəsilə yükdaşımaların artması Asiya ilə Avropanı birləşdirən Orta Dəhlizin cəlbediciliyinin və rəqabətqabiliyyətliliyinin də güclənməsinə müsbət təsir göstərir.

Beləliklə, Vaşinqtonda keçirilən 8-ci Trans-Xəzər Forumunda Orta Dəhlizlə bağlı səsləndirilən fikirlərdən belə qənaət hasil olunur ki, ABŞ bu infrastrukturun inkişafına böyük maraq göstərir. Birləşmiş Ştatların Xəzər regionu ilə ticarət dövriyyəsinin son iki ildə 40 milyard dollar təşkil etməsi də Orta Dəhlizin əhəmiyyətini sübuta yetirir.

# Tikinti malları 45 faiz artıb

**2024-cü ilin yanvar–aprel aylarında Azərbaycanda 406,8 milyon manat dəyərində tikinti materialları istehsal edilib. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 44,6 faiz çoxdur.**



Dövlət Statistika Komitəsindən “XQ” yə bildiriblər ki, ilin ilk 4 ayında beton istehsalı 39 faiz, tikinti gipsinin istehsalı 39 faiz, təbii asfalt istehsalı 32,6 faiz, betondan yığma tikinti konstruksiyalarının istehsalı 25 faiz, sement istehsalı isə 21,6 faiz artıb.

**_XQ_**

# Xəzərdən Qara dənizə “yaşıl dəhliz”

## *Dünya Bankı sualtı kabelin çəkilişinə 35 milyon dollar ayırıb*

**Qara dənizin dibi ilə yaradılacaq “yaşıl dəhliz” layihəsi öz aktuallığını getdikcə artırır. Layihəyə beynəlxalq maliyyə dəstəyinin gücləndirilməsi də məhz bundan qaynaqlanır. Bugünlərdə Dünya Bankının İcraçı Direktorlar Şurası elektrik enerjisi və bərpaolunan enerji mənbələri proqramı (ESPIRE) vasitəsilə enerji təhlükəsizliyinin gücləndirilməsi üzrə proqramın birinci mərhələsinin maliyyələşdirilməsi üçün 35 milyon ABŞ dolları məbləğində krediti təsdiqləyib. Bu barədə Dünya Bankı məlumat yayıb.**

Xatırladaq ki, ESPIRE proqramı Qara dəniz sualtı kabel layihəsinin inkişafı üçün Gürcüstanın institusional imkanlarının yaxşılaşdırılması, yerli elektrik ötürmə sistemininin möhkəmləndirilməsi, eləcə də Cənubi Qafqaz və Cənub-Şərqi Avropa arasında birbaşa enerji əlaqəsinin qurulmasını hədəfləyən 500 milyon ABŞ dolları dəyərində potensial maliyyələşdirmə paketi ilə birlikdə üç mərhələdən ibarətdir. Sözügedən proqram təyinat nöqtələri Gürcüstan və Rumıniyada olmaqla Qara dəniz boyunca paralel sualtı kabel elektrik ötürmə xətləri və fiber optik kabelin çəkilməsini hədəfləyən Qara dəniz sualtı kabel layihəsinin (BSSC) hazırlığının növbəti mərhələlərini dəstəkləmək üçün nəzərdə tutulub.

Yeri gəlmişkən, dünyada ənənəvi enerji mənbələrindən “yaşıl enerji”yə keçidin sürətləndirilməsi ilə əlaqədar neft, qaz və ya kömür kimi təbii sərvətlərlə zəngin ölkələr belə, enerji siyasətində müəyyən dəyişikliklərə başlayıblar. Bunun nəticəsidir ki, hazırda dünyada enerji istehlakının 20 faizə yaxını bərpaolunan enerji mənbələrinin payına düşür. Hətta bir sıra ölkələr 2035-2050-ci ilə qədər mədən yanacaqlarından tamamilə imtina etməyi və “yaşıl enerji”dən istifadəyə keçməyi planlaşdırırlar.

Azərbaycanda da bu sahəyə xüsusi diqqət göstərilir. 2030-cu ilədək elektrik enerjisi qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması, işğaldan azad olunmuş ərazilərin “yaşıl enerji” məkanına çevrilməsi ölkəmizin enerji siyasətində prioritetdir. Təsadüfi deyil ki, hazırda Azərbaycanın ümumi elektrik enerjisi istehsalında iri su elektrik stansiyaları da daxil olmaqla bərpaolunan enerji mənbələrinin payı 17 faizi ötüb. 2023-cü ildə ölkəmizin su elektrik stansiyalarında 1 milyard 757,2 milyon-kilovat-saat, külək elektrik stansiyalarında 15,5 milyon kilovat-saat, günəş elektrik stansiyalarında 13,4 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 62 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Heç şübhəsiz, ölkəmizin bərpaolunan enerji mənbələrinin hərəkətə gətirilməsi istiqamətində həyata keçirilən layihələr yaxın illərdə bu sahədə əhəmiyyətli artıma səbəb olacaq.

Düz bir ay əvvəl, aprelin 23-də ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda keçirilən beynəlxalq forumda Prezident İlham Əliyev ölkəmizdə bu sahədə görülən işlərlə bağlı iştirakçılara məlumat verib. Artıq xarici investorlar tərəfindən “yaşıl enerji” layihələrinə investisiya yönəldilməsinə başlandığını vurğuylayan dövlət başçısı ötən ilin oktyabrında 240 meqavat gücündə ilk günəş



elektrik stansiyasının istismara verildiyini, bu il isə əlavə dörd günəş və külək elektrik enerjisi stansiyasının təməlinin qoyulacağını diqqətə çatdırıb. Bu, həm də Azərbaycanın “yaşıl enerji” ixracatçısına çevrilməsinə imkan yaradacaq.

Elə Prezident İlham Əliyevin yeni enerji siyasətinin əsas istiqamətlərindən biri də məhz Azərbaycanın Avropanın dekarbonizasiyasında fəal iştirakını təmin etməkdən ibarətdir. Bununla ölkəmiz, həm də Avropaya yeni enerji körpüsü salmaqla “köhnə qitə”nin mühüm elektrik enerjisi, əsasən də, “yaşıl enerji” təchizatçısına çevrilməyi hədəfləyir. Bunun isə yaxın illərdə reallaşacağı şübhəsizdir. Çünki bu istiqamətdə artıq ilk ciddi addımların atılmasına başlanılıb. Məlum olduğu kimi, 2022-ci il dekabrın 17-də Buxarestdə “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” imzalanıb. Əldə edilən razılaşma çərçivəsində Qara dəniz enerji sualtı elektrik kabelinin tikintisi nəzərdə tutulur. Həmin kabel Azərbaycanda hasil edilən “yaşıl” elektrik enerjisini Gürcüstan və Qara dəniz vasitəsilə Macarıstana və Avropanın qalan hissəsinə çatdırmaq üçün Rumıniyaya tədarük edəcək. Sözügedən saziş Azərbaycanın “yaşıl enerji”sinin Avropaya çatdırılmasını nəzərdə tutur.

Qeyd edək ki, həmin sənədə əsasən, Qara dənizin dibi ilə 4 qiqavat gücündə və 1195 kilometr uzunluğunda elektrik enerjisi kabeli çəkiləcək. Bu da ölkəmizdə istehsal olunan “yaşıl enerji”ni Avropaya ixracına imkan yaradacaq. Beləliklə də, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyini daha dolğun və əhatəli şəkildə təmin edilməsində yaxından iştirak edəcək.

Məlum olduğu kimi, Xəzər dənizindən Qara dənizə, oradan da Avropaya doğru gedən “yaşıl kabel” layihəsinin texniki-iqtisadi əsaslandırılması artıq sonuncu mərhələyə qədəm qoyub. Texniki-iqtisadi əsaslandırma hazır olan kimi işlərə başlanacaq.

Yaxın illərdə isə “yaşıl enerji” dəhlizinin coğrafiyasının genişləndirilməsi nəzərdə tutulur. Bunun üçün isə real imkanlar mövcuddur. Məlum olduğu kimi, Xəzərin o tayı zəngin bərpaolunan enerji resurslarına malikdir. “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda keçirilən beynəlxalq forumda bu məsələyə toxunan Prezident İlham Əliyev artıq praktiki cəhətdən Qara dəniz sualtı kabelinin Mərkəzi Asiyaya qoşulması imkanının da müzakirə edildiyini vurğulayaraq deyib: “Biz layihəni genişləndiririk. Çünki layihə Qara dəniz kabel xətti kimi, yəni, Gürcüstanın Qara dəniz sahilindən Rumıniyanın Qara dəniz sahilinədək uzanan layihə kimi başlamışdır. Biz layihəni Xəzər dənizinə qədər genişləndirdik və indi biz onu daha da, Xəzərin şərq sahilinə – Qazaxıstana qədər genişləndiririk.

**_Mirbağır YAQUBZADƏ_**
**_XQ_**

## XQ-yə yazırlar

# Susuz nə çəltik?

**Rayon sakini Elsevər Məmmədovun redaksiyamıza ünvanladığı məktubda son 2 il ərzində Kakalos kəndində Telman Əhmədov, Xalid Əhmədov, Novruz Fəttayev, Ədalət Əhmədov və digərlərinin çəltik əkini sahələrinin suyun düzgün verilməməsi səbəbindən yararsız hala düşdüyü qeyd edilir.**



Məktubda vurğulanır ki, ötən il çəltik əkildikdən sonra heç bir əsas olmadan ərazinin yuxarı hissəsindən sahəyə gələn suyu kəsib yaxınlıqda bənd qoyublar. Sahələrə aşağı tərəfdən su yığıldığına və su ötürücüləri olmadığına görə əkin su altında qalaraq məhv olub. Astara Rayon İcra Hakimiyyəti və rayon Suvarma Sistemləri İdarəsi isə şikayətlərə məhəl qoymur. “Sahələrimiz indiyədək su altında olduğu üçün əkinə hazırlaya bilmirik”,–deyə sakinlər bildirirlər.

**_XQ_**

# Azərbaycan – Tacikistan: sınaqlardan çıxmış etibarlı dostluq

**Azərbaycanın bugünkü möhtəşəm uğurlarının təməli ulu öndər Heydər Əliyevin ölkədə siyasi hakimiyyətə qayıdışının ilk illərində qoyulmuşdu. Ümummilli liderin siyasi müdrikliyi sayəsində ölkəmizin dostları qısa müddətdə çoxalmış, Azərbaycanın beynəlxalq aləmdə tanıdılması istiqamətində heyrətamiz addımlar atılmışdı. Ulu öndər ölkəmizin yaxın qonşuları, türk dövlətləri, İslam dünyası, eləcə də, postsovet məkanı ölkələri ilə əlaqələrin bərpa edilməsi və əməkdaşlığın yaradılmasına müstəsna əhəmiyyət verirdi.**



Yadımdadır, Heydər Əliyev 1996-cı ilin oktyabrında Daşkənddə səfərdə olarkən – o, Özbəkistan paytaxtına Əmir Teymurun 660 illik yubileyində iştirak etmək məqsədi ilə getmişdi – Tacikistan Prezidenti Emoməli Rəhmonla görüşmüşdü. Hər iki prezident yeni müstəqillik qazanmış respublikalarımızın keçid dövründə qarşılaşdıqları çətinliklərin aradan qaldırılmasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın çox vacib olduğunu vurğulamışdı. Şükürlər olsun ki, həm Bakı, həm də Düşənbə həmin dövrün çətinliklərini, həlli müşkül görünən problemləri böyük uğurla geridə qoymuşlar.

Onu da əlavə edim ki, Tacikistan Prezidenti həmin görüşdə ölkəsinin Azərbaycanla əlaqələrin genişləndirilməsinə böyük maraq göstərdiyini bəyan etmiş və öz ölkəsindəki vəziyyət barədə Heydər Əliyevə ətraflı məlumat vermişdi. Hamı bilir ki, həmin dövrdə Heydər Əliyev öz ölkəsindəki vətəndaş müharibəsinin qarşısını alsa da, Tacikistanda vətəndaş müharibəsi təhlükəsi hələ davam edirdi. Çox sonralar mən Azərbaycan mətbuatında "Heydər Əliyev Tacikistandakı vətəndaş müharibəsinin qarşısını necə almışdı?" adlı yazı oxumuşdum. Elə tacikistanlı həmkarlarımız da Azərbaycan xalqının ulu öndərinin Mərkəzi Asiyada böyük nüfuza malik olduğunu yazırdılar.

Aradan 27 il keçəndən sonra – 2023-cü ildə Tacikistan Prezidenti bizim ulu öndərimiz haqqında danışarkən artıq Prezident İlham Əliyevin də ölkəsində, regionda və dünyada qazandığı nüfuzu xatırlatmışdı: "Tacikistanda Heydər Əliyevin şəxsiyyətinə hər zaman dərin hörmət bəsləyiblər. İki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin qurulmasında Heydər Əliyevin misilsiz xidmətləri olub. Eləcə də, iki ölkə arasında çoxtərəfli münasibətlərin dərinləşməsində onun rolu danılmazdır. Bu il Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana dövlət səfərində əldə edilən nəticələr bir daha sübut edir ki, iki xalq ortaq tarixə, dostluğa, qardaşlığa, qarşılıqlı hörmətə və xoş münasibətə sadiqdir. Əminəm ki, bu səfər zamanı əldə edilən razılıqlar iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın əsasını qoyacaq. İki ölkə arasındakı münasibətlər ardıcıl, müştərək addımlar nəticəsində artan xətlə inkişaf edəcək. Bu da iki xalqın xeyrinə davam edəcək".

Xatırladaq ki, Tacikistan Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdəndir. Bakı ilə Düşənbə arasındakı diplomatik münasibətlərin təməli isə 1992-ci il mayın 29-da qoyulmuşdur. Yəni Tacikistan Prezidentinin Bakı səfəri və bizim bu sətirlərimiz diplomatik əlaqələrimizin 32-ci ildönümü günlərinə təsadüf edir. O da vurğulanmalıdır ki, Tacikistan dövləti artıq tarixin arxivinə göndərilmiş keçmiş münaqişənin davam etdiyi bütün dövrlərdə Azərbaycanın haqq işini dəstəkləmiş, bizim Zəfərimizlə nəticələnən İkinci Qarabağ müharibəsinin yaratdığı yeni reallıqları isə alqışlamış və xalqımızın sevincinə şərik olmuşdur. Məhz bütün bunlara görə Azərbaycan Prezidenti Tacikistan dövlətinə güvənmiş, inanmış və həmin ölkəyə 6 dəfə səfər etmişdir.

Prezident İlham Əliyevin xatırlatdığı kimi, Azərbaycan və tacik xalqları arasında tarixi, mədəni və dini bağlılıqlar iki ölkə arasındakı əlaqələrin əsasını təşkil edir. Ölkələrimizi tarixi dostluq əlaqələri, siyasi, iqtisadi, humanitar və digər sahələrdə münasibətlər birləşdirir. Azərbaycan Xarici İşlər Nazirliyinin elektron resurslarında göstərilir ki, ölkələrimiz arasında, ümumilikdə, 57 sənəd, o cümlədən 2007-ci il martın 15-də "Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə" imzalanıb. Sözsüz ki, cənab Prezidentin ötən il aprelin 5-də Tacikistana dövlət səfəri bu inkişafın və ölkələrimiz arasında əlaqələrin daha da yüksəlişinə güclü təkan vermişdir.

Prezident kitabxanasının elektron materiallarında oxuyuruq ki, ötən il aprelin 5-də Azərbaycan Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Düşənbə şəhərində mətbuata bəyanatla çıxış edərkən müştərək tariximizi xüsusi qeyd etmişlər. Azərbaycan Prezidenti xatırlatmışdı ki, 1990-cı illərin əvvəllərində hər iki ölkə böyük çətinliklərlə üzləşmişdi, ölkələrimizdə ictimai-siyasi sabitlik pozulmuşdu, həm Tacikistanda, həm də Azərbaycanda vətəndaş müharibəsi baş vermişdi. Vətəndaş müharibəsini qardaşqırğını və müharibələrin ən dəhşətlisi kimi xarakterizə edən Prezident İlham Əliyev o dövrdə Tacikistanda Prezident Emoməli Rəhmonun, Azərbaycanda isə ulu öndər Heydər Əliyevin qanlı səhifəni çevirmək və ölkələrimizi inkişaf yoluna çıxarmaq üçün nə mümkündürsə, etdiklərini və məqsədlərinə nail olduqlarını yada salmışdı. Eyni zamanda, vurğulanmışdı ki, bu gün həm Tacikistan, həm də Azərbaycan sabit dövlətlərdir. Təbii ki, bu sabitliyin əsas səbəblərindən biri hər iki dövlətin sülhsevər siyasəti və istənilən tərəfdaşla münasibətlərdə səmimi və sədaqətli olmalarıdır.

Bu məqamda bir faktı xüsusilə qabartmaq istəyirəm. Prezident İlham Əliyev ötən ilin aprelində Tacikistanda dövlət səfərində olmasına baxmayaraq, Emoməli Rəhmonun şəxsi dəvəti ilə həmin ilin sentyabrında da Düşənbəyə getmişdi. Bu fakt ona görə bizim üçün əlamətdardır ki, ötən il sentyabrın 14-də Mərkəzi Asiya dövlət başçılarının Məşvərət Şurasının Düşənbədə keçirilən iclasında Prezident Emoməli Rəhmonun dəvəti ilə bu şəhərə gedən İlham Əliyev tədbirdə iştirak edən yeganə fəxri qonaq – Mərkəzi Asiya dövlətlərini təmsil etməyən siyasətçi idi. O da xüsusilə vurğulanmalıdır ki, Tacikistan Prezidenti Emoməli Rəhmon da ötən il noyabrın 24-də BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olub. Yəni qarşılıqlı səfərlər, müntəzəm təmaslar və əlaqələrin sıxlaşdırılması hər iki ölkənin maraqlarını təmin edir və öz müsbət nəticələrini göstərir.

Bundan başqa, Milli Məclisin saytında vurğulanır ki, Azərbaycanla Tacikistan arasındakı münasibətlər parlamentlər səviyyəsində də uğurla davam etdirilir. Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan–Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Eləcə də, Tacikistan Respublikasının Ali Məclisinin hər iki palatasında Azərbaycan Milli Məclisi ilə parlamentlərarası dostluq və əməkdaşlıq qrupu mövcuddur.

Mətbuat yazır ki, Prezident Emoməli Rəhmonun ölkəmizə dövlət səfəri ərəfəsində – mayın 20-də Bakıda Azərbaycan – Tacikistan İnvestisiya Forumu keçirilib. Forumda Azərbaycanın və Tacikistanın investisiya potensialı, icra olunan layihələr haqqında təqdimatlar nümayiş etdirilib, müxtəlif iqtisadi subyektlər arasında yeni əməkdaşlıqlar müzakirə olunub. Biznes-forum çərçivəsində şirkətlər arasında ticarət, dağ-mədən və kənd təsərrüfatı sahələrində əməkdaşlığa dair 8 sənəd imzalanıb.

Təbii ki, mətbuatımız Prezident Emoməli Rəhmonun Bakıya dövlət səfəri barədə geniş məlumatlar yayacaq. Ona görə də biz təfərrüata varmırıq. Amma sonda onu xatırladırıq ki, eyni tarixi yaşamış, eyni taleyi bölüşmüş və bənzər şəkildə inkişaf yolu keçmiş Azərbaycanla Tacikistan daim bir-birinin yanında olmuşlar və bundan sonra da həmin ənənə yaşadılacaqdır.

*İttifaq MİRZƏBƏYLİ*

# "Xudafərin" və "Qız Qalası" – Araz üstündə yeni dostluq və əməkdaşlıq körpüsü

**Azərbaycan və İranın dövlət sərhədində – Araz çayı üzərində inşa edilən "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları elektrik enerjisi istehsalı və suvarma məqsədilə tikilib. Hidroqovşaqların layihələri keçmiş SSRİ ilə İran arasında 1977-ci ilin oktyabrında imzalanan razılaşma əsasında hazırlanıb. Layihələri 1990-cı illərin əvvəllərində yenidən işlənilən hidroqovşaqların tikintisi Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi nəticəsində dayandırılsa da, sonrakı dövrlərdə inşaat işləri yalnız İran İslam Respublikası tərəfindən aparılıb.**

2020-ci ildə Vətən müharibəsi nəticəsində Azərbaycanın torpaqları, o cümlədən hidroqovşaqların tikildiyi ərazi işğaldan azad edilib. Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismara qəbulu ilə əlaqədar bəzi məsələlər barədə sərəncama əsasən, 2021-ci ildə "AzərEnerji" ASC Azərbaycan tərəfindən sifarişçi kimi müəyyənləşdirilib.

Araz çayının su ehtiyatlarından səmərəli istifadə olunmaqla elektrik enerjisinin istehsalı və əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına xidmət edəcək "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarında su bəndlərinin tikintisi üzrə işlər tamamlanıb, su anbarlarının doldurulması işlərinə başlanılıb.

Hazırda "Xudafərin" su anbarında 503 milyon kubmetr, "Qız Qalası" su anbarında isə 42 milyon kubmetr su yığılıb ki, bu da ümumi tutumun 40 və 85 faizini təşkil edir.

Mayın 19-da ölkələrimiz arasında əməkdaşlığın inkişafında yeni bir mərhələnin başlanğıcı olan "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılış mərasimində energetika naziri Pərviz Şahbazov çıxış edərək adları çəkilən bu infrastrukturları Azərbaycan və İranın mehriban qonşuluq və dostluq münasibətlərinin inkişafını gerçəkləşdirən siyasətin töhfəsi kimi dəyərləndirib.

Energetika naziri qeyd edib ki, su tutumu 1,6 milyard kubmetr olan "Xudafərin" və 56,75 milyon kubmetr su tutumuna malik "Qız Qalası" hidroqovşaqları, həmçinin hər bir tərəf üçün ümumi qoyuluş gücü 140 MVt olan "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyaları paritet əsasda ölkələrimizin maraqlarına xidmət etməklə Azərbaycan–İran təcrübəsində transsərhəd sulardan istifadənin örnəkləri olacaq.

Bu layihə təkcə Azərbaycana mövcud 252 min hektar torpaq sahəsi üzrə suvarmanın yaxşılaşdırılması və 12 min hektar yeni əkin sahələrinin suvarılması, illik 358 milyon kilovat-saat elektrik enerjisi istehsalı, 80 milyon kubmetr qaza qənaət imkanı yaradacaq.

"Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyaları layihəsi üzrə 2016-cı ildə imzalanmış müvafiq Hökumətlərarası Sazişə əsasən, yaradılmış birgə Texniki Komissiya layihələrin icrası prosesindən irəli gələn məsələlərin müzakirəsi, razılaşdırılması və həllinə töhfə verir.

"Xudafərin" və "Qız Qalası" Şərqi Zəngəzurun "yaşıl enerji zonası" kimi inkişafının mühüm elementlərindən olmaqla bərabər, regional əməkdaşlıq əlaqələrinə də təkan verəcək. Stansiyaların qoşulacağı "Cəbrayıl" enerji qovşağı ölkəmizin Şərqi Zəngəzur və Naxçıvan bölgələri arasında yeni enerji bağlantısına xidmət edəcək. Şübhəsiz ki, bu layihələr, eyni zamanda, "yaşıl enerji" sahəsində ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinə müsbət təsir göstərəcək.

Yeri gəlmişkən, İranın kütləvi informasiya vasitələrində (KİV) verilən materiallarda sözügedən infrastrukturlar iki ölkə arasında ən önəmli layihələrdən biri kimi dəyərləndirilir. Eyni zamanda, Araz su bəndindən 196 kilometr aşağı hissədə yerləşən "Qız Qalası" hidroqovşağının istifadəyə verilməsi ilə İran ərazisində 74 min hektar kənd təsərrüfatı ərazisinin (Ərdəbil vilayətində 62 min hektar, Şərqi Azərbaycan vilayətində 12 min hektar) su ilə təmin olunacağı bildirilir. Beləliklə, qeyd olunan ərazilərdə kənd təsərrüfatı məhsulları istehsalının yaxın perspektivdə artması gözlənilir.

İran mediasının yaydığı məlumata əsasən, "Qız Qalası" hidroqovşağına 5,5 trilyon rial (təxminən 131 milyon dollar) dəyərində vəsait xərclənib. Bu su bəndi vasitəsi ilə İranın Şərqi Azərbaycan və Ərdəbil vilayətlərində 74 min hektar ərazi su ilə təmin olunacaq və 85 min nəfərin işlə təmin edilməsi ilə nəticələnəcək. Bu su bəndi ildə 2 milyard kubmetr (1 milyard kubmetr Azərbaycan, 1 milyard kubmetr İran üçün) suyu tənzimləyəcək.

Yeri gəlmişkən, 44 günlük Vətən müharibəsindən az sonra – 2021-ci ilin aprelində İlham Əliyev Cəbrayıla səfəri zamanı İranla sərhəddə Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsinin açılışı zamanı Xudafərin körpüsünü Azərbaycan–İran dostluğunun rəmzi adlandıraraq belə söyləmişdi: "Azərbaycan-İran sərhədi dostluq sərhədidir. Bu sərhədin qorunması Azərbaycan–İran əlaqələrinin inkişafı üçün də çox böyük önəm daşıyır. Bizim İran İslam Respublikası ilə digər istiqamətlərdə də sərhədimiz var və bu, sözün əsl mənasında, dostluq, əməkdaşlıq sərhədidir".

Bəli, dövlət başçımızın vurğuladığı kimi, sözün əsl mənasında, dostluq, əməkdaşlıq sərhədində suvarma və kənd təsərrüfatının sürətli inkişafı ilə yanaşı, "Qız Qalası" su elektrik stansiyasının (SES) istismarı regionun iqtisadi inkişafına, kənd təsərrüfatı məhsullarının keyfiyyətinin yüksəldilməsinə və turizmin inkişafına gətirib çıxaracaq.



Qeyd edək ki, layihə iki su elektrik kompleksinin və quraşdırılmış gücü 100 MVt olan "Xudafərin" və 40 MVt gücündə "Qız Qalası" su elektrik stansiyalarının tikintisini nəzərdə tutur.

Bu layihənin həyata keçirilməsi təkcə Azərbaycana ildə 358 milyon kVt/saat elektrik enerjisi istehsal etməyə, 252 min hektar mövcud sahənin suvarılmasını yaxşılaşdırmağa və 12 min hektar yeni əkin sahəsinin suvarılmasını təmin etməyə imkan verəcək. Ümumi gücü 1,6 milyard kubmetrdən çox olan bu su elektrik kompleksləri və elektrik stansiyaları Azərbaycan və İrana sərhəd Araz çayının su və enerji ehtiyatlarından birgə istifadə etməyə şərait yaradacaq.

2016-cı ilin iyulunda Azərbaycan Prezidenti İlham Əliyev Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyalarının tikintisində davam etdirilməsi, enerji və su ehtiyatlarının birgə istifadəsi haqqında Azərbaycan–İran sazişini təsdiqləyib.

*V.BAYRAMOV*
*XQ*

## Ekspert rəyi



**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru,**
**professor**

Azərbaycan–İran münasibətlərinin dərin tarixi kökləri var. Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlər sırasında İranın da olması və 1992-ci il mart ayının 12-də iki ölkə arasında diplomatik əlaqələrin qurulması da bunun bariz ifadəsidir.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə yenidən gəlməsindən sonra Azərbaycanla İran arasında iqtisadi əlaqələr sürətlə inkişaf etməyə başladı. Artıq uzun müddətdir ki, hər iki dövlət İslam Əməkdaşlıq və İqtisadi Əməkdaşlıq təşkilatlarının üzvləri olaraq daim əlaqəli fəaliyyət göstərirlər.

Bu gün Azərbaycan ilə İran arasında iqtisadiyyatın müxtəlif sektorlarında sıx əməkdaşlıq mövcuddur. Bu sırada energetika, kənd təsərrüfatı, nəqliyyat, turizm, sərmayə qoyuluşu sahələrindəki əməkdaşlıq xüsusi qeyd olunmalıdır. Hər iki dövlətin təşəbbüsü ilə reallaşdırılan layihələr yalnız ölkələrimizin iqtisadiyyatının inkişafına deyil, bütövlükdə, regional tərəqqiyə öz töhvəsini verir.

Son illərdə Azərbaycanla İran arasında xarici ticarət əlaqələri yüksələn xətlə inkişaf edir. Belə ki, 2005-ci ilə müqayisədə 2022-ci ildə iki ölkə arasında xarici ticarət dövriyyəsi iki dəfədən çox artaraq 506,3 milyon ABŞ dollarına çatıb. Bu illər ərzində İrandan idxalın həcmi 8,5 dəfəyə qədər artaraq 476, 4 milyon dollara yüksəlsə də sözügedən dövrdə respublikamızdan İrana ixracın həcmi bir neçə dəfə azalıb.

Müqayisə apardığımız dövrdə ticarət əlaqələrində idxalın sürətlə artması, ixracın isə sürətlə azalması siyasi motivlərlə deyil, obyektiv iqtisadi səbəblərlə izah olunur. Belə ki, iki ölkə arasında idxal və ixracın həcmindəki bu dəyişiklik birbaşa İran milli valyutasının bu illər ərzində sürətlə ucuzlaşması ilə izah edilir. İran milli valyutasının ötən illər ərzində sürətlə ucuzlaşması səbəbindən adıçəkilən qonşu ölkə bazarında ucuzlaşan malların respublikamıza, eləcə də Azərbaycan məhsullarının İran bazarlarına ixracı o qədər də sərfəli olmayıb. Yəni, iki ölkə arasındakı ticarət əlaqələrində artımın yalnız idxalın hesabına baş verməsinin heç bir siyasi motivi yoxdur. Xarici ticarət dövriyyəsinin strukturunda baş verən bu dəyişiklik yalnız iqtisadi amillərlə izah olunur.

Son illər ərzində Azərbaycan və İran dövlət başçıları arasında keçirilmiş görüşlər hər iki ölkənin qarşılıqlı iqtisadi əlaqələrinin inkişaf etdirilməsini və regionda birgə layihələrin reallaşdırılmasını şərtləndirib. Bu sırada 2023-cü il noyabrın 9-da Özbəkistanın paytaxtı Daşkənddə İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısı çərçivəsində Azərbaycanın dövlət başçısı İlham Əliyevlə İran Prezidenti Seyid İbrahim Rəisinin görüşü xüsusi qeyd olunmalıdır. Həmin görüşdə İran Prezidenti ölkəsinin Azərbaycanla əlaqələrinin qənaətbəxş olmasını bildirib və eyni zamanda, birgə layihələrin icrasında və hətta Qarabağın bərpasında yaxından iştirak etməyə hazır olduqlarını vurğulayıb.

Həmin görüşdə Azərbaycan Prezidenti İlham Əliyev, öz növbəsində, "Çox şadam ki, İran və Azərbaycan nümayəndələrinin birgə işi nəticəsində biz Araz çayının cənub sahili boyunca dəmir yolu və avtomobil xətti marşrutunun keçməsini razılaşdırdıq. Əminəm ki, bu layihə qısa müddətdə həyata keçiriləcək və Şimal–Cənub Nəqliyyat Dəhlizinin daha bir istiqamətinə çevriləcəkdir. Yəni, nəticədə bizim iki marşrutumuz olacaq: biri Astara çayı üzərindən, digəri Ağbənd ərazisindən. Hər iki marşrut İranla Azərbaycan arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi işinə xidmət edəcək, həmçinin qonşularımız və digər tərəfdaş ölkələr üçün əlçatan olacaq", – demişdi.

Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında və Naxçıvanda tikiləcək körpülər vasitəsilə İran ərazisindən gündəlik 1100 avtomobilin, 30 avtobusun, 15 min insanın sərhəddən keçidi təmin olunacaq, bu yol, eyni zamanda, tranzit yüklərin daşınmasına da xidmət edəcək. Regional əhəmiyyəti böyük olan bu yolun açılması ilə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu bölgənin logistik mərkəzinə çevriləcək.

Bu ilin may ayının 19-da Azərbaycan və İran prezidentləri İlham Əliyev və Seyid İbrahim Rəisinin iki ölkə sərhədindəki görüşü keçən ilin sonlarında onların arasında Daşkənddə reallaşan dialoqun məntiqi davamı idi.

Araz çayı üzərində inşa edilmiş "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılışı iki ölkə arasında Araz çayının su ehtiyatlarından səmərəli istifadə istiqamətində atılan mühüm addım və ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafında yeni mərhələnin başlanğıcı kimi də dəyərləndirilə bilər.

# Səyyar qəbul – açıq ictimai dinləmə

## *Göygöl rayonunun Topalhəsənli kəndində 1 il sonra gördüklərimiz, eşitdiklərimiz*

**Sonuncu dəfə Topalhəsənli kəndində düz bir il qabaq, may günlərində olmuşduq və gördüklərimizdən dəhşətə gəlmişdik. Bir gün əvvəl, gecə saatlarında güclü sel kənddə elə fəsadlar yaratmışdı ki, onu sözlə ifadə etmək də çətin idi. Bir anda kəndin başının üstünü alan dəhşətli seldən sonra Topalhəsənlidə hara baxırdın dağıntılar, aşmış, əzilmiş, yararsız hala düşmüş maşınlar, evlər, mağazalar, digər tikililər çıxırdı qarşına. Sel suları evlərə dolmuşdu, qaz xətləri yararsız vəziyyətə düşmüşdü. O zaman hadisə yerinə dərhal aidiyyəti qurumların rəsmiləri, texnika və canlı qüvvə cəlb olunmuş, fəsadların aradan qaldırılmasına başlanılmışdı. Adamlar deyirdi ki, biz hər bir işi yoluna qoyacağıq, kəndi əvvəlki vəziyyətinə qaytaracağıq, lakin amansız selin ağuşuna alıb apardığı iki nəfərin həyatını geri qaytara bilməyəcəyik...**



O zaman diqqətimizi bir məqam daha çox cəlb etmişdi. Hiss edirdik ki, bu yerin adamları dövlətə və dövlətçiliyə çox bağlıdırlar. Rayon icra hakimiyyətinin, digər əlaqədar təşkilatların köməyi, texnikası, maddi və mənəvi dəstəyi bir yana, böyüklü–kiçikli hamı qolunu çırmayıb dayanmaq bilmədən işləyirdi. Ağsaqqal bir kişinin dedikləri hələ də yadımdadır: "Topalhəsənliyə tərəf bir xeyirxah addım atana, qayğısını sözdə deyil, əməldə göstərənə biz ondan artıq eləməsək, rahatlıq tapa bilmərik..."

...İndi bayaqdan açıq havada təşkil edilmiş səyyar qəbulda çıxışlara qulaq asırıq və görürük ki, nəyi xahiş edirlər, arxasınca da "o birisini də özümüz edərik" deyirlər. Artıq iki ilə yaxındır ki, rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev



də sanki kənd camaatının necə deyərlər, "damarını tutub", xasiyyətinə, işgüzarlığına, canıyananlığına bələddir. Tez-tez "onda sizli– bizli gəlin bu işi başa çatdıraq", yaxud "sizin fəallığınızdan çox şey asılıdır..." və sair bu kimi müraciətlər edir. Yeri gəlmişkən qeyd edək ki, rayon rəhbərinin qısa vaxt ərzində Göygöldə adamlarla qaynayıb-qarışması elə ilk andan hiss olunur və bu, Topalhəsənli görüşündə də açıq görünür. Şəhid anası yaxınlaşır, dərhal adını deyərək, qoluna girib problemini soruşur. Kənarda dayanıb söhbətə qulaq asan qaziyə uzaqdan "o işi tam başa çatdırdılar?" – deyə soruşur və sair.

Problemlər isə həmişə var. Çıxış edənlərdən biri yaxşı dedi ki, "nə qədər dünya var, problem də olacaq".

Səyyar qəbulda kənd icra nümayəndəsi görülən işlərlə və problemlərlə bağlı qısa məlumat verdikdən sonra rayon icra hakimiyyətinin başçısı E. Paşayev görüşə toplaşanlar qarşısında çıxış etdi. Dedi ki, səyyar qəbulda icra hakimiyyəti başçısı aparatının məsul şəxsləri, YAP rayon təşkilatının sədri, hüquq-mühafizə orqanlarının rəhbərləri, inzibati ərazi dairəsi üzrə nümayəndə, bələdiyyə və xidmət sahələrinin rəhbərləri iştirak edirlər.

O, belə səyyar görüşlərin ölkə rəhbərinin tapşırıq və tövsiyələri əsasında respublikamızda aparılan sosial-iqtisadi islahatlar, əhalinin rifah halının yüksəlməsi istiqamətində görülən işlərin tərkib hissəsi olduğunu qeyd etdi. Dövlət və vətəndaş münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini, məhz bu uğurlu siyasətin ölkəmizin bütün istiqamətlər üzrə mühüm nailiyyətlərə şərait yaratdığını vurğuladı, eyni zamanda, Elektron–hökumət portalı tərəfindən yaradılmış Rəqəmsal icra hakimiyyəti platforması barədə məlumat verdi, xidmətin əlçatanlıq və üstünlüklərini qeyd etdi.

Bir məsələni də vurğulayaq ki, son iki ildə rayon icra hakimiyyəti aparatı işçilərinin istər vətəndaşlarla qarşılıqlı münasibətində, istərsə də özlərinin hazırlığında ciddi müsbət dəyişiklik hiss olunur. Rayon rəhbərinin təşəbbüsü ilə vaxtaşırı olaraq aparat işçilərinin daha hazırlıqlı olması, dünyagörüşlərinin formalaşdırılması, adi etiket qaydalarına kimi mənimsəmələri istiqamətində mühüm işlər görülüb. Dövlət qulluqçularının, ilk növbədə, rayon icra hakimiyyəti aparatı işçilərinin geyimindən tutmuş nitqinə, adamlarla münasibətinə kimi hamısı diqqət mərkəzindədir. Bakıdan da dəvət olunan mütəxəssislər tərəfindən aparat işçiləri qarşısında mühazirələr oxunur, məşğələlər aparılır.

Onu da deyək ki, səyyar qəbula getməzdən əvvəl icra hakimiyyətində vətəndaşların qəbulu ilə bağlı ASAN xidmət modelindən istifadə etməklə yaradılmış çox gözəl, əyani vasitələrlə, mebellə təchiz olunmuş xüsusi otaqlara baxdıq. Səliqəli, müasir, kompüterləri olan qəbul otaqlarında hər cür şərait yaradılıb. Sakin nə vaxt gəldi, icra hakimiyyətinin məsul işçisi onu qarşılayır, problemlərini öyrənir, şikayətinin təmin edilməsi istiqamətində konkret iş görür, məsləhət verir və yönləndirir.

...Səyyar qəbula maraq o zaman artır ki, orada qaldırılan problemlərə rayon rəhbəri, digər əlaqədar təşkilatlar diqqətlə yanaşırlar, onların həllinə biganə qalmırlar. Məsələn, kənd icra nümayəndəsi Cavid Əliyev dedi ki, Elvin müəllim qısa vaxt ərzində üçüncü dəfədir burada səyyar qəbul keçirir. Söylədi ki, əvvəlki səyyar qəbullar zamanı irəli sürülən, Gəncə çayının Topalhəsənli kəndindən keçən hissəsində sahil bəndləmə işlərinin aparılması, kənddaxili yolların cari təmiri, səliqə-sahman yaradılması, qəzalı vəziyyətdə olan elektrik dayaqlarının çoxunun yenisi ilə əvəz olunması məsələləri öz həllini tapmışdır.



Gəncəkənddən, 6 kilometr məsafədən çəkilən su borusunun 2 kilometr hissəsindəki sızmalar özümüzün daxili imkanlarımız hesabına cari təmir aparılmaqla aradan qaldırılmışdır.

"Yaşıl Dünya naminə həmrəylik ili" çərçivəsində kəndin girişində, magistral yolun kənarında müxtəlif növ şam ağacları əkmişik. Kənd dağlıq ərazidə yerləşdiyi üçün evlər tez-tez təbii fəlakətə məruz qalır. Lakin adamlar evlərinin sığortalanması işlərinə biganə qalırdılar. Biz bu işi də yoluna qoymuşuq. Geniş izahat, maarifləndirmə işləri sayəsində artıq 25 ev sığortalanmışdır. Kənd fasiləsiz elektrik enerjisi, təbii qaz və internet ilə təmin edilir.

Elvin Paşayev görüşə toplaşan sakinlərə dönə-dönə müraciət etdi, problemlərinin nədən ibarət olduğunu öyrənmək istədi.

Bəsti İsgəndərova kəndə avtobus marşrutunun olmamasından şikayət etdi və digərləri də onu dəstəklədilər. Elə oradaca Topalhəsənli kənd bələdiyyəsinin sədri Validə Hacıyevaya tövsiyə olundu ki, nümayəndəliklə birlikdə bu məsələ ilə ciddi məşğul olsun.

Gəray Qəhrəmanov qəzalı vəziyyətdə olan elektrik dayaqlarının və naqillərin yenilənməsini, əyilmiş qaz xəttinin bərpa olunmasını təklif etdi.

Şubay Əliyev kənddən keçən yolun asfaltlanmasını, evinin yaxınlığındakı qəzalı vəziyyətdə olan elektrik dayaqlarının yenilənməsini və rabitə dayaqlarının standartlara uyğun qoyulmasını təklif etdi.

Tarix Həsənov kənddaxili yolların təmir edilməsini arzuladı və dedi ki, "bizdən də nə asılıdır, hazırıq".

Səyyar qəbulda diqqətçəkən məqamlardan biri də bu idi ki, hər xırda məsələ belə, nəzarətə götürülür və şikayətçilərə operativ məlumat vermək üçün onların telefon nömrələri yazılırdı.

Adamlar razılıqla görüş yerini tərk etməyə başladılar. Hamının yanında çıxış etmək istəməyən, şəxsi xahişləri, digər ailə problemləri olanlar icra hakimiyyətinin başçısını dövrəyə aldılar və daha bir səmimi söhbət başlandı...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***
**Göygöl rayonu**

# COP29-un yerləşdirmə hazırlığının onlayn şəbəkəsi




**COP29-a evsahibliyi edəcək ölkə olan Azərbaycan bu gün vahid onlayn rezervasiya platformasını təqdim edib.**

Platforma iştirakçılara noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Konfransında iştirak üçün hotel və digər yerləşmə vasitələrini rezerv etməyə imkan verəcək.

COP29 ofisində keçirilən mətbuat konfransında Dövlət Turizm Agentliyinin sədr müavini Azadə Hüseynova bildirib ki, rezervasiya platforması tədbirdə iştirak etmək istəyənlər üçün müxtəlif otaq növləri və logistika baxımından əlçatan olması kimi amillər əsas götürülməklə hazırlanıb.

Rezervasiya platforması bu gün saat 17:00-dan etibarən bronlar üçün https://cop29-accommodation.bnetwork.com ünvanında aktiv olacaq.

"Biz dünya ölkələrini Bakıda qarşılamağa hazırlaşırıq. Bundan öncə COP tədbirlərinə ev sahibliyi etmiş ölkələrin qonaqlar üçün yerləşmə yerlərinin təmin olunması məsələsinə yanaşması tərəfimizdən öyrənilib və bu metodların bəzi elementləri tədbirin ev sahibi olaraq planlarımıza inteqrasiya edilib. Müxtəlif ölkələrdən iştirakçıların yerləşmə vasitələrini rahat və sürətli bron edə bilməsi üzrə işləri yekunlaşdırmışıq", – deyə Azadə Hüseynova bildirib.

Dövlət Turizm Agentliyi bütün tədbir iştirakçılarının yüksək səviyyədə qarşılanmasını təmin etmək üçün şəhər və regiondakı hotellər, onlayn yerləşmə platformaları və digər yerləşmə vasitələri ilə sıx əməkdaşlıq edir.

Hazırda sistemdə mövcud olan yerləşmə vasitələri prosesin birinci mərhələsini əhatə edir. Növbəti mərhələlərdə alternativ hotellər və yerləşmə yerləri təqdim olunacaq.

Platformaya daxil olan hotellər keyfiyyət, yerləşmə və tədbir üçün təşkil olunacaq nəqliyyat xidmətləri əsasında seçilib. Agentlik tərəfindən 300-dən artıq yerləşmə müəssisəsi audit edilib və onlardan, təxminən, 200-ü təsnif edilərək ulduz dərəcəsi əldə edib. Ulduz təsnifatından keçməyən 40-a yaxın hotelə nöqsanları aradan qaldırmaq üçün müddət verilib və onlarda təkrar audit həyata keçiriləcək.

Azadə Hüseynova, həmçinin COP29-dan əvvəl Dövlət Turizm Agentliyi tərəfindən həyata keçirilən keyfiyyətli qonaqlama xidmətlərinin təşkili üzrə təlim proqramının təfərrüatlarını bölüşüb. O qeyd edib ki, Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu üzrə 300-ə yaxın yerləşmə vasitəsinin 2 minə yaxın personalına xidmət keyfiyyətinin artırılması məqsədilə peşə təlimlərinin keçirilməsi üzərində işlər aparılır.

Bundan əlavə, agentlik tərəfindən 200 turizm bələdçisinə təlimlərin keçirilməsi və sertifikatlaşdırılması, eləcə də tədbir müddətində hotellərə dəstək olmaq üçün minə yaxın turizm könüllüsünə təlimlər keçirilərək müvafiq hotellərə təhkim olunması nəzərdə tutulur.

***XQ***

# "Ağ ölüm"ə ölüm!

**Mayın 23-də Baş nazirin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədovun sədrliyi ilə aidiyyəti nazirlik, komitə və digər təşkilatlar tərəfindən görülmüş işlərin müzakirəsinə dair Komissiyanın növbəti iclası keçirilib.**



Komissiyanın sədri Əli Əhmədov bildirib ki, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi məqsədilə mübarizə tədbirləri gücləndirilib, antinarkotik təbliğin müasir dövrün tələblərinə uyğunlaşdırılması sahəsində müvafiq işlər görülüb, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədar məqsədyönlü tədbirlər həyata keçirilib.

Qeyd edilib ki, hüquq-mühafizə orqanları bu ilin dörd ayında 3 min 796 fakt üzrə 2 ton 262 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə və psixotrop maddəni qanunsuz dövriyyədən çıxarıb. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə narkotiklərlə bağlı cinayət faktlarında 196, qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisində 849 kiloqram azdır.

Dövlət Komissiyanın iclasında Dövlət Gömrük Komitəsi sədrinin müavini Cavad Qasımov, Dövlət Sərhəd Xidməti rəisinin müavini Abbas Xəlilov, səhiyyə nazirinin müavini Nadir Zeynalov, Salyan Rayon İcra Hakimiyyətinin başçısının müavini, Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə rayon komissiyasının sədri Rəşad Cəbrayılov, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısının müavini, Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə şəhər komissiyasının sədri Orxan İbrahimov təmsil etdikləri qurumlar tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizə tədbirlərinin və narkotik asılılığı olan şəxslərin sayının azaldılması üçün görülən işlərin vəziyyəti, bu sahədə qarşıda duran vəzifələr barədə məlumat veriblər.

***XQ***

Türk xalqları ədəbiyyatı

# Günahların cəza evi – "Dəlixana"

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) "Natəvan" klubunda Qırğızıstan Xalq yazıçısı Sultan Rayevin "XAN Nəşriyyatı"nda çap olunmuş "Dəlixana" romanının təqdimatı keçirilib.**

AYB-nin Ədəbiyyat Fondu və "Hədəf" Şirkətlər Qrupunun birgə layihəsi olan "Türk xalqları ədəbiyyatı" seriyasının bu ilk kitabı həm də müəllifin Azərbaycan dilində oxuculara təqdim edilən ilk əsəridir. Azərbaycan ədəbi cameəsinin tanınmış simalarının toplaşdığı mərasimi AYB sədri, Xalq yazıçısı Anar açaraq, olacaq.

Layihə rəhbərlərindən Azərbaycan Nəşriyyatlar Assosiasiyasının həmtəsisçisi və direktoru Şəmil Sadıq, akademik Nizami Cəfərov, tanınmış kinorejissor, Xalq artisti Vaqif Mustafayev, AYB-nin katibi, yazıçı Elçin Hüseynbəyli, TÜRKSOY-da Azərbaycanın nümayəndəsi



görkəmli qırğız ədibi və eyni zamanda, TÜRKSOY təşkilatının Baş katibi olan Sultan Rayevin kitabının doğma dilimizdə çapını yüksək dəyərləndirdi.

Görüşün aparıcısı, Ədəbiyyat Fondunun baş direktoru, Ümumdünya Yazıçılar Təşkilatının Türk dövlətləri və türkdilli xalqlar bölməsinin katibi Varis Yolçiyev qeyd etdi ki, indiyədək bir neçə dildə çıxmış və hazırda ingiliscəyə də çevrilməkdə olan "Dəlixana" romanı bəşər övladının ruhunun da, əzabının da əbədi olması barədə gözəl bir əsərdir. O, belə bir inamını ifadə etdi ki, Aysel Oğuzun tərcüməsində hasilə gəlmiş bu roman da geniş oxucu kütləsinin marağına səbəb Elçin Qafarlı, Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova, kitabın həmredaktorları Yunis Oğuz və Cavid Qədir, filologiya üzrə fəlsəfə doktoru Şərəf Cəlilli, Milli Məclisin Mədəniyyət komitəsinin eksperti, şair Əkbər Qoşalı, sosioloq Əhməd Qəşəmoğlu çıxışlarında Azərbaycan–qırğız ədəbi əlaqələrinin dünəni və bugünündən bəhs etdilər.

Mərasimdə Sultan Rayev TÜRKSOY-a rəhbər seçiləndən sonra beynəlxalq türk mədəniyyəti təşkilatının fəaliyyətində böyük canlanma yarandığı vurğulandı. Təqdim olunan əsərin ideya-estetik yönlərinə işıq salındı.




"Dəlixana" romanının bədii məziyyətləri ilə bağlı qeyd edildi ki, əsərdə yüz illərcə əvvəl ölmüş tarixi şəxsiyyətlərin ruhunu daşıyan 7 nəfərin başına gələnlər təsvir olunur. Onlar bəşər övladının həyatda yol verdiyi günahların cəzasını çəkirlər. Əsərin qəhrəmanları bədəldən qaçmaq üçün çöllərə düşürlər. Müqəddəs torpağın axtarışına çıxır, Musa peyğəmbərin ardıcılları kimi səhrada dolaşmağa başlayırlar. Amma bədən dünyanı tərk etsə də, ruh cəzasını başqa bədənlərdə çəkməyə davam edir. Beləcə, roman tarixin izsiz ötüşmədiyi, bu gün baş verənlərin keçmişlərin nəticəsi, gələcəyin əvvəli olduğu qanunauyğunluğunu ehtiva edir.

Mərasimin sonunda Sultan Rayev əhatəli təqdimata görə minnətdarlığını bildirdi, qardaş xalqlar ədəbiyyatlarının tanıdılması yönümündə TÜRKSOY tərəfindən atılan addımları diqqətə çatdırdı. O, "Dəlixana" romanını yaxşı bildiyi Azərbaycan dilində mütləq oxuyacağını söylədi.

***Ə.ƏLİYEV***
***XQ***

Abbas Səhhət – 150

# "Sevgili məhbubu" Vətən olan şair

**Dünyada İbn Sinadan, Məsihidən üzübəri çoxlu görkəmli yazar olub ki, oxuyub sahibləndikləri həkimlik peşəsi ilə deyil, məhz bədii əsərləri ilə tanınıblar. Fransua Rable, Uilyam Karlos Uilyams, Fridrix Şiller, Artur Konan Doyl, Anton Çexov, Mixail Bulqakov, Vladimir Dal, eləcə də soydaşlarımız Nəriman Nərimanov, Abbas Səhhət, Tağı Şahbazi və başqaları bu qəbildəndirlər. Ağ xalat və skalpellərini qələmlə dəyişənlərin arasında Abbas Səhhət yeganə şəxs olub ki, ilkin peşəsinə bağlı "Səhhət" sözünü bədii təxəllüs kimi qəbul edib.**

...Şamaxıda ruhani ailəsində dünyaya gəlmiş Abbas Səhhət 20 yaşında İrana gedərək, Məşhəd və Tehranda tibb təhsili alıb. Amma sonra tədricən həkimlik sənətindən uzaqlaşaraq müəllimlik edib, Azərbaycan dilindən dərs deyib və ədəbi fəaliyyətə başlayıb. 1903-cü ildən məqalələri "Şərqi-Rus" qəzetində çap olunub. 1905-ci ildə "Yeni poeziya necə olmalıdır?" adlı məqaləsi, daha sonra "Poetik nitq", "Azadlığa mədhiyyə", "Oyanışın səsi" şerləri işıq üzü görüb. "Yeni üslublu məktəblər" ideyasının yorulmaz müdafiəçisi olan Abbas Səhhət, Əli bəy Hüseynzadənin banisi olduğu Azərbaycan romantik ədəbiyyatı cərəyanına qoşulub və "Füyuzat" dərgisində çalışıb. Eyni zamanda ötən əsrin əvvəllərində Bakıda nəşr olunan bütün jurnal və qəzetlərdə fəal çıxışlar edib. Tərcüməçilik fəaliyyəti ilə də məşğul olan yazıçı o dövr Azərbaycan oxucusunu rus, fransız, alman şair və yazıçılarının əsərləri ilə tanış edib.



Abbas Səhhətin öz şeirlərindən ibarət "Sınıq saz" və Avropa şairlərindən etdiyi tərcümələrdən ibarət "Qərb günəşi" adlı şerlər toplusu 1912-ci ildə işıq üzü görüb. Bir qədər sonra "Əhmədin şücaəti" adlı poeması, 1916-cı ildə isə "Şair, şeir pərisi və şəhərli" adında romantik poeması nəşr olunub. Azərbaycanın böyük satirik şairi Mirzə Ələkbər Sabirlə əziz dost olan və məsləkdaşı haqqında gözəl məqalələr yazan Abbas Səhhətin yaradıcılığında Nizami, Hafiz, Sədi kimi şairlərin böyük təsiri duyulur. O, türk xalqlarının ədəbiyyatları ilə də yaxından maraqlanır, xüsusilə Tofiq Fikrət yaradıcılığına rəğbət bəsləyirdi.

Şairin çox məşhur "Vətən" şeiri düz 1 əsrdən çoxdur ki, dillər əzbəridir. Vətəni övlad və şair könlünün sevgili məhbubu adlandıran, onun verdiyi "nanü-nəməyi" unutmağı nadanlıq sayan Abbas Səhhət hər kəsin anlayıb yadda saxlayacağı bir dildə deyirdi:

**Vətən – əcdadımızın mədfənidir,**
**Vətən – övladımızın məskənidir.**
**Vətəni sevməyən insan olmaz,**
**Olsa, ol şəxsdə vicdan olmaz.**

Çoxdan zərb-məsələ çevrilmiş bu misraların doğurduğu güclü vətənpərvərlik assosiasiyasının sayəsində "Vətən" şeiri şairin etibarlılıq müddəti bitib-tükənməyən yaradıcılıq pasportuna çevrilib desək, zərrəcə ifrata varmış olmarıq. Onun "Cücələrim", "Qaranquş balaları", "Yaz", "Quşlar", "Ayı və şir" kimi şeirləri də əksəriyyətin, heç olmasa, bir-iki beytini bildiyi nümunələrdir.

AZTV-nin "Mədəniyyət" kanalında AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynovun təqdimatında "Vətənim" verilişinin Azərbaycan ədəbiyyatında romantizm cərəyanının nümayəndəsi, böyük ustad şair və dramaturq, tərcüməçi Abbas Səhhətin misilsiz yaradıcılığına həsr olunmuş buraxılışı xatirimizdədir. Verilişdə məşhur xanəndə, Əməkdar artist Yavər Kələntərlinin bibisi oğlu Abbas Səhhətlə bağlı xatirələrindən söhbət açılıb. Qeyd olunub ki, güclü yaddaşa malik olan şair öz şeirlərindən əlavə, Azərbaycanın görkəmli nümayəndələrinin şeirlərinin böyük bir qismini əzbər bilir, Osmanlı şairlərinin əsərlərini səsləndirirdi. Aparıcı akademik onun Vətəni sevdiyi qədər sevilməyə layiq bir şəxsiyyət olduğunu diqqətə çatdıraraq dedi ki, Səhhətin bütün yaradıcılığına qələm əvəzinə, sanki, fırça ilə yaratmaq keyfiyyəti xasdır. Onun 100 il əvvəl yazılmış əsərləri bu gün üçün də aktualdır, yaddaşlardadır və Vətən dərsliyinin "ayələridir".

**Şişə çəksəz də diriykən ətimi,**
**Atmaram mən vətənü-millətimi.**
**Məsləkim tərcümeyi-halımdır,**
**Lütfi-həq qayeyi-amalımdır.**

Bəlkə də həkimliyindən irəli gələn cəhətdir ki, Abbas Səhhətin bütün yazılarında, bax, belə bir təmizlik, saflıq, dürüstlük, işıq var. Sözün əsl mənasında Vətən şairi olmuş unudulmaz dahi şəxsiyyətin abidəsi daim ədəbiyyat üfüqlərindən boy göstərəcək.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Qəhrəmanmaraşdan yayılan türk sözü

**Uzun illərdən sonra talelərinə sahib olmuş türk dövlətləri 30 ildən artıqdır ki, həyatın bütün sahələrində əməkdaşlıq imkanlarını daha da genişləndirir, eyni zamanda, müasir dünyada yeni bir qüdrətli birlik qururlar. Bu baxımdan birliyimizə töhfələr verən və Türkiyədən XQ-yə gələn 2 nəşrlə oxucuları tanış edirik:**

## "Heca daşları"



Bu günlərdə 111-ci sayı oxuculara təqdim edilən "Heca daşları" Türk dünyasının, demək olar ki, bütün xalqlarının klassik və müasir nəzm nümunələrini nəşr edən almanaxdır. Azərbaycan şairlərinin də geniş yer aldığı elektron dərgi Türkiyənin Qəhrəmanmaraş şəhərində nəşrə hazırlanır və artıq bir neçə ildir ki, qardaş xalqların yazarlarını daha geniş bir məkanda tanıdır.

Dərginin naşiri Teyyub Atmaca 1962-cı ildə Qəhrəmanmaraşda (Kahramanmaraş) doğulub. Ticarət Liseyini bitirdikdən sonra Osmaniyyə Universitetində biznesin idarə edilməsi fakültəsində oxuyub. "Güneysu" mədəniyyət, incəsənət və ədəbiyyat jurnalının yaradıcılarından olub və uzun müddət bu jurnalın baş redaktoru vəzifəsini yerinə yetirib. Şeir və esseləri "Ardıc", "Ay vaxtı", "Bir nöqtə", "Dolunay", "Ədəbiyyat mühiti", "Güneysu", "Qar çiçək", "Kardelen", "Qardaş qələmlər", "Milli Kültür", "Mina", "Palandöken", "Türk Dili, Türk Ədəbiyyatı", "Yeddi İqlim", "İtirilmiş arzular", "Səyyah" və s. jurnallarda dərc olunub. Qəhrəmanmaraşda yaşayan yazar hazırda Onikişubat Bələdiyyəsində məmur vəzifəsində çalışır.



Teyyub Atmaca Əskişəhərdə "Kırağı" jurnalını, Osmaniyədə Mustafa Özçəliklə birlikdə "Ardıç" mədəniyyət və ədəbiyyat dərgisini nəşr etdirib. Bu gün elektron şəkildə yayımlanan "Heca daşları" və "Açıkkara" (yumor məzmunlu) adlı jurnalları nəşr edir. Osman Qazi Turaç, Ali Qalip Katırcı, Hasan Basri Meses, Toygar Yontar, Mehmet Hartlap, Müsamettin Turp və Kısmet Keven təxəllüsü ilə yazılan yumoristik məqalələrin müəllifidir.

Heca və sərbəst vəznlərində qələm işlədən müəllifin şeir dünyasında türkcülüyün xüsusi önəmi var. O, aydın və yığcam təsvir vasitələrinə önəm verərək, əsərlərində Anadolu xalqının qəhrəmanlıq və həssaslığını təsvir edir, xalq poeziyasından, o cümlədən ozan-aşıq ənənəsinin ifadə üslublarından məharətlə faydalanır. Heca vəznində orijinal əsərlər yaradan azsaylı şairlərdən olan Atmaca müxtəlif illərdə nəşr edilən "Sözün izində", "Yaralı durna", "Yanmış məktublar", "Uzun incə bir türkü", "Sarı kitab", "Eskişəhərin yaşlanmayan üzləri", "İçimdə yanan mahnı səndə sönər", "Aşıqlar məclisi", "Səssiz danışan gözümü dinlə" kimi 15-dən çox kitabın müəllifidir.

Naşiri olduğu "Heca daşları" almanaxında Nizami, Füzuli, Nəsimi, Vaqif kimi klassik şairlərimizlə yanaşı, müasir Azərbaycan ədəbiyyatının Məmməd İsmayıl, Sabir Rüstəmxanlı, Nüsrət Kəsəmənli, Ramiz Rövşən, Vaqif Bəhmənli və digər nümayəndələrinin çoxsaylı ədəbi nümunələrini görməkdəyik. Nəşrin bu günlərdə işıq üzü görən son sayında (https://hecetaslari.com/hecetaslaridergisi/) uzun illərdir Türkiyənin Qaziantep Universitetində çalışan azərbaycan əsilli professor İlqar Cəmiloğlu İmamverdiyevin "Mənasız mənalı həyat" şeiri də yer alıb.




## "Bulaq başı"

Bu nəşrin ilk sayı bu ilin fevralında Qəhrəmanmaraş vilayətinin Elbistan şəhərində işıq üzü görüb. Yayın rəhbəri şəhər milli təhsil idarəsinin müdiri Fatih Çətin və redakroru Yakup Gumus olan "Bulaq başı" (Pınarbaşı) mədəniyyət, incəsənət və ədəbiyyat jurnalıdır. Şərqi Anadolunun qərbində yerləşən Elbistan kökləri keçmişə gedib çıxan və bir çox sivilizasiyaların beşiyi olmuş bir şəhərdir. Keçmiş sivilizasiyalardan miras qalmış dəyərlər, istər coğrafi gözəllikləri, istərsə də insani, mədəni və iqtisadi aspektləri baxımından böyük potensiala malik olan Elbistanda nəşr həyatına başlayan dərginin ilk sayı türk şeir, nəsr və fikir dünyasında müstəsna adı olan və Elbistanda doğulmuş Əli Akbaşa həsr edilib (file:///C:/Users/Admin/Downloads).

Əli Akbaş müasir türk ədəbiyyatının sənətə mənəvi bağlılığı ilə seçilən önəmli yazarlarındandır. Ömrünü və yaradıçılığını Türk-İslam dünyasına həsr etmiş Əli Akbaş mübariz döyüşçü ruhu ilə seçildiyi kimi, həm də ürəyi Türk dünyasına və həyata sevgi ilə dolu olan bir insandır. Nəşrin gələçək saylarında da türk dünyasının ünlü sənət adamlarının təqdimatı, əsərlərinin geniş yer alaçağı vurğulanır.

Türk mədəni sərvətinin seçilən simalarından olan Yusuf Hacip "Ölkəni qılıncla ala bilərsən, amma qələmlə idarə edərsən" devizi ilə yola çıxan "Bulaq başı" jurnalının yaradıcı heyətinə uğurlar arzulayıb. Biz də əsərləri ilə Türk dünyasının birliyinə ruh verən şair və yazıçıları birləşdirmək amalına xidmət edən, kökümüzdən qidalanan sənətə, ədəbiyyata yeni səs, rəng və harmoniya gətirən bir nəşri alqışlayırıq.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Udmurt yazıçısının "Sonuncu hərbi əmr"i

**Çağdaş udmurt ədəbiyyatının, mədəniyyətinin görkəmli nümayəndəsi, Xalq yazıçısı Vyaçeslav Ar-Serginin "Sonuncu hərbi əmr" kitabı Azərbaycanda nəşr olunub. Bu, nəinki müəllifin, ümumən udmurt ədəbiyyatının Azərbaycanda, o cümlədən Qafqazda işıq üzü görən ilk kitabı olmaq özəlliyi ilə seçilir.**

Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB) ilə Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) ortaq işi olan "Sonuncu hərbi əmr"in layihə rəhbəri Beynəlxalq "Alaş" Ədəbiyyat mükafatı laureatı Əkbər Qoşalı, məsləhətçiləri – Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Fazil Mustafa, Tatarıstanda yaşayan soydaşımız, tanınmış ictimai xadim İsmət Orucəliyev, rəyçiləri isə BAMF prezidenti Umud Rəhimoğlu, Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu, DGTYB başqanı İntiqam Yaşardır.

Udmurt yazıçısının hekayələrini ruscadan Azərbaycan dilinə DGTYB Məsləhət Şurasının üzvləri olan ədiblər – Ruhəngiz Əliyeva, Rəsmiyyə Sabir, Həyat Şəmi, Şahnaz Kamal, Taləhə Əliyeva, İbrahim İlyaslı, Şəfəq Sahibli, Şahməmməd Dağlaroğlu çevirib. Kitabın redaktorları Əkbər Qoşalı və DGTYB üzvləri Xəyalə Zərrabqızı, Xəyalə Sevildir.

"Avrasiya PRESS" Nəşriyyat Evində çıxan kitaba Umud Rəhimoğlu "Ön söz" yazıb. Redaktorların qələmə aldığı "Kiçik əhvalatlar... Böyük həqiqətlər" adlı tanıtım yazısında isə yazıçının hekayələri əsasında ədəbi portreti yaradılıb.

Vyaçeslav Ar-Serginin hekayələrinin əsas süjet xətti kompozisiya strukturundan daha çox yazıçının özü ilə mükaliməsi şəklində qurulur. Xalq yazıçısı sanki təhtəlşüur qatında yazdığı hekayələrlə ruhundan süzülənləri, xoşməramlı gizlinlərini oxucusuna pıçıldayır.




Vyaçeslav Ar-Sergini oxuyarkən onun hisslərinə ortaq olur, əsər boyu ədibin qəhrəmanları ilə birgə düşünür, onlarla gülür, ağlayırıq...

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Füzuli irsi sevilir və sevdirir

***Ölkəmizin hər yerində olduğu kimi, cənub mirvarisi Lənkəranın təhsil və mədəniyyət ocaqlarında da görkəmli Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyi münasibətilə silsilə tədbirlər keçirilir. Lənkəran Dövlət Universiteti (LDU) və Astara Pedaqoji Kollecində təşkil olunan ədəbi-bədii gecələri tələbə-gənclər maraqla qarşılayıblar.***

LDU-da Lənkəran – Astara Regional Mədəniyyət İdarəsi ilə birgə düzənlənən mərasimdə Füzulinin yaradıcılığını əks etdirən əl işlərindən ibarət rəsm sərgisinə baxış keçirilib, dahi söz ustasının əsərlərinə bəstələnmiş musiqilər, şairin yaradıcılığından seçmə nümunələr ifa olunub.

Astara kollecində isə ədəbi-bədii yubiley tədbiri "Könül mülkünün sultanı" adlandırılıb. Əvvəlcə dahi şairin poetik dünyasına həsr olunmuş video-çarx nümayiş etdirilib. Sonra təhsil ocağının direktoru, professor Kamran Kazımov Prezident İlham Əliyevin sərəncamı ilə qeyd olunan yubileyin önəmindən danışıb. Digər natiqlər gecənin təşkilinin gənclərin xalqımızın milli-mənəvi sərvətlərinə, klassik irsimizə olan marağını artıracağını bildiriblər.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər***
***Birliyinin üzvü***



BEYNƏLXALQ HƏYAT

# Makronun Numeada çətin "sülh" axtarışı

(əvvəli 1-ci səhifədə)

"Figaro" qəzeti xəbər verir ki, Fransa prezidentini ölkənin daxili işlər naziri Jerald Darmanen, müdafiə naziri Sebastian Lekornü, dənizaşırı ərazilər naziri Mari Qevnu müşayiət edir. Makron bildirib ki, onun əsas prioriteti asayişin bərpa olunmasıdır və yalnız bu halda arxipelaqda fövqəladə vəziyyət rejimi aradan qaldırıla bilər. Ancaq Fransa prezidenti seçici siyahıları məsələsində geri addım atılmayacağını, artıq qəbul edilmiş qanunların dəyişdirilməyəcəyini də vurğulayıb. Bu isə o deməkdir ki, Paris yeni xalqın tələblərini qulaqardına vurdu. Qeyd edək ki, Yeni Kaledoniyada son etiraz aksiyalarının əsas səbəblərindən biri kənardan gətirilən insanlara yerli kanak xalqının ziyanına olaraq səsvermə hüququnun verilməsidir.

Senatın saytında qeyd olunur ki, qanunun birinci maddəsində xarici güclərin Fransanın ictimai həyatında iştirak edən aktorlarının qeydiyyatı, uçotunun aparılması tələb edilir. Layihənin müəllifləri analoji qanunların ABŞ və Böyük Britaniyada daha əvvəl qəbul edildiyini bildiriblər. Qanunun ikinci maddəsində görə, yeni genişmiqyaslı tədbirlər həyata keçiriləcək, "çünki başqa seçim yoxdur". Fransa prezidentinin ətrafı Makronun dəqiq planının olmadığını və böyük siyasi qərarların gözlənilmədiyini deyirlər. Makronu səfərdə Fransanın daxili işlər və müdafiə nazirləri müşayiət edirlər.

Xatırladaq ki, Fransa 1853-cü ildə Yeni Kaledoniya üzərində nəzarəti ələ keçirib və 1946-cı ildə koloniyaya Fransanın xaricdəki mülki statusu verib. "Alman dalğası" radiosu bildirir ki, Yeni Kaledoniya dünyanın üçüncü ən böyük nikel istehsalçısıdır, lakin istehsal böhran içindədir və ərazinin hər beş sakinindən biri yoxsulluq həddinin altında yaşayır. Buna səbəbinin də, təbii ki, adanın uzun illər ərzində amansız istismarı göstərilir. Yeni Kaledoniyada həyat standartları baxımından cəmiyyətin ciddi təbəqələşməsi var. Aborigenlərlə müqayisədə gəlmələr daha yaxşı vəziyyətdədir, yerli əhalinin vəziyyəti isə daha pisdir. Kanaklar qorxurlar ki, arxipelaqın tərkibinə ağdərililərin əlavə olunması yerli əhaliyə qarşı ayrı-seçkiliyi artıracaq və zaman keçdikcə onların öz vətənlərində azlığa çevrilməsinə gətirib çıxaracaq.



hökumət ildə bir dəfə parlamentə xarici təhdidlərlə bağlı hesabat verməlidir. Üçüncü maddə xüsusi xidmət orqanlarının səlahiyyətlərinin artırılmasını, texniki imkanları genişləndirməyi, həmçinin rəqəmsal məlumatların avtomatik emalını nəzərdə tutur. Dördüncü maddədə xarici təsirlə mübarizə üçün monetar qanunvericiliyin dəyişdirilməsi, hesabların dondurulması prosedurunun əhatə dairəsinin genişləndirilməsi və maliyyə sanksiyaları nəzərdə tutulur. Qanunun qüvvəyə minməsi üçün onu Fransa prezident təsdiqləməlidir. Makronun senatorları gözlətməyəcəyi vurğulanır, çünki məhz bu qanun Fransa prezidentinə əlavə səlahiyyətlər verəcək ki, ədalətsizliyə etiraz edən dənizaşırı yerli hökumətlərə qarşı sərt qərarlar qəbul etsin.

Numea səfəri zamanı Fransa prezidenti Yeni Kaledoniyada bir həftədən çox davam edən zorakılıqlardan sonra asayişi bərpa etmək üçün təhlükəsizlik qüvvələrinin gücləndirilməsini elan etdi. Mayın 13-də başlayandan bəri Paris arxipelaqa 3000-ə yaxın jandarm, polis və digər təhlükəsizlik qüvvələri göndərib. Makron adada bildirib ki, bu qüvvə Olimpiya və Paralimpiya Oyunları zamanı da daxil olmaqla, lazım olan müddət ərzində öz yerində qalacaq. Onun sözlərinə görə, yaxın günlərdə lazım gələrsə, asayişi tam bərpa etmək üçün

Eyni zamanda, Melaneziyanın digər ölkələrindən fərqli olaraq, Yeni Kaledoniyada Avropa mədəniyyəti aborigen mədəniyyəti üzərində tam üstünlük təşkil edir. Bu üstünlük Numeada xüsusilə güclü hiss olunur. Fransızlar əllərindən gələni ediblər ki, aborigenlərin məskunlaşdığı kəndlər ənənəvi xüsusiyyətlərini saxlamasın, Avropa kəndinə oxşasın. Yeni Kaledoniyalılar indi Avropa üslubunda geyinirlər. Adada ənənəvi yemək bacarıqları da itirilir, milli mətbəxdə Avropanın təsiri getdikcə daha çox hiss olunur. Belə bir vəziyyətdə Fransa seçki qanunvericiliyini dəyişdirir və adaya yerləşən avropalıları da seçki prosesinə qatır.

Makronun adaya gəlişi qalmaqalsız ötüşməyib. "TF1info" xəbər verir ki, Numea şəhərində dövlət başçısının iştirakı ilə keçirilən ilk iclas məsləhətçi qurum olan Məsləhət Şurası tərəfindən boykot edilib. Fransa mətbuatı yazır ki, şuranın prezidenti Viktor Qonyi Makronla görüşə qatılmaqdan imtina etməklə Parisin etirazçılara qarşı güc tətbiq etməsini pisləyib. Kanaklar Parisin zor tətbiq etməsini Numea sazişinin pozulması kimi qiymətləndirirlər. Buna görə də yaranmış vəziyyətdən çıxış yolunu tapmaq Makron üçün çətin olacaq.

***S.ELAY***
***XQ***

## "Bakı Mexaniki-Təmir" QSC səhmdarlarının nəzərinə!

8 iyul 2024-cü il saat 16.00-da "Bakı Mexaniki-Təmir" QSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Maliyyə-təftiş komissiyasının hesabatı.
3. Digər məsələlər.

Telefon- 050-216-30-52.
Ünvan-Bakı, Keşlə qəsəbəsi, Abdulla Mirzəyev küçəsi 60.

***İdarə heyəti***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

tabeliyindəki "ASCO Nəqliyyat" MMC-yə tələb olunan avtomobillərin illik texniki xidmətinin satın alınması məqsədilə iki mərhələli müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il mayın 5-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1176.
Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

İDMAN

# Pəhləvanlar yurdunun yeni güləşçi nəsli

**Yunan-Roma güləşi üzrə millimiz daha bir tarixi qələbə qazanıb. Ötən həftə U-15 komandamız Yunanıstanın Lutraki şəhərində keçirilən qitə birinciliyində 10 (1 qızıl, 4 gümüş, 5 bürünc) medal qazanaraq tarixdə ilk dəfə Avropa çempionu oldu. Bu dəfə 23 yaşadək güləşçilər də Avropa arenasında rəqiblərindən güclü olduqlarını sübut etdilər.**



Bakıda U-23 Avropa çempionatında "klassiklərimiz" qalib adını qazanmaqla daha bir ilkə imza atdılar. Bu nüfuzlu yarışda 3 qızıl, 1 gümüş və 4 bürünc medala yiyələnən güləşçilərimiz 163 xalla komanda hesabında qızıla layiq görüldü.

Qitənin ən güclü pəhləvanlarının yarışında fəxri kürsünün üst pilləsinə yüksələnlər arasında Qurban Qurbanovun (82 kq) qələbəsi daha önəmli oldu. Həlledici görüşdə rusiyalı İslam Əliyevi 8:2 hesabı ilə məğlubiyyətə uğradan istedadlı idmançımız, bununla ikinci dəfə U-23 Avropa çempionatının qalibi oldu. Ötən il analoji yarışda 72 kiloqram çəkidə mübarizə aparan idmançı bu dəfə daha ağır çəki dərəcəsində çıxış etsə də, yüksək nailiyyət qazana bildi.

**Qurban qələbəsi ilə bağlı danışarkən qeyd etdi ki, əsas hədəfi böyük arenalarda daha yüksək nəticələr qazanmaqdır:**

– 82 kiloqram çəkidə oturuşmuş, daha güclü güləşçilər var. Qızıl medalı onlardan almaq elə də asan olmadı. Artıq növbəti yarışlara köklənmək lazımdır. Daha böyük arenalar üçün nəinki vaxt çatıb, hətta bir qədər gecikmişəm. Məşqçilərimə inanıram və gələcəkdə daha böyük qələbələr üçün birgə çalışacağıq.

Fəxri kürsünün ən yüksək pilləsinə yüksələn pəhləvanlarımızdan Xasay Həsənlinin (77 kq) də ən böyük arzusu böyüklərin yarışında yüksək nəticə qazanmaqdır.

**Qələbə təəssüratını bölüşən idmançı yarışdan əvvəl hazırlıq taktikasını konkret 2 rəqibinə görə qurduğunu, revanş hissi ilə alışıb-yandığını bildirdi:**

– Keçən il Avropa və dünya çempionatının finalında moldovalı rəqibə məğlub olmuşdum. Bu dəfə həlledici mərhələdə rəqibim olan türkiyəli güləşçiyə də iki dəfə uduzmuşdum. Onlarla görüş mənim üçün çətin idi. Qələbəyə inamım mənə əlavə güc verdi. İstəyimə çatmaq üçün ən gözəl məkan "doğma divarlar" idi. Sevimli azarkeşlər önündə hədəfə çatdığım üçün xoş hisslər keçirirəm. Ən böyük arzum isə böyüklər arasında da yüksək nəticələr qazanmaqdır. Məşqləri bundan sonra daha da artıracağam.

**Digər qızıl medalçımız Ziya Babaşov (63 kq) Azərbaycan güləş arenasında belə parlaq nailiyyətin qazanılmasının onda qürur hissi yaratdığını dedi:**

– Doğma məkanda, sənə azarkeşlik edənlər önündə qələbə qazanmaq fərqli bir hissdir. Qalib olmaq üçün üzərimdə çox işləmişdim. Finalda həyəcanlı olsam da, çalışırdım bunu büruzə verməyim. Çünki həlledici görüşdə məğlub olmaq istəmirdim. İndi əsas məqsədimiz böyüklərlə də mübarizədə yüksək nəticə qazanmaqdır. Bunun üçün əlimdən gələni edəcəyəm.

Yarışda gızıl medalın 1 addımlığında uduzub, gümüş mükafatla kifayətlənməli olan Nihad Quluzadə, bürünc medalçılar Rəşad Məmmədov (55 kq), Ruslan Nurullayev (72 kq), Laçın Vəliyev (87 kq) və Murad Əhmədiyev (97 kq) də çempionluğa layiq mübarizə sərgiləyiblər. Özlərinin dedikləri kimi, bir qədər tələskənlik, təcrübəsizlik və digər səbəblər onların fəxri kürsünün ən yüksək pilləsinə gedən yolunu kəsib. Məşqçi və mütəxəssislərin də vurğuladığı kimi, bu gənc pəhləvanların hər birinin gələcəyin Dünya, Olimpiya çempionları kimi yetişməsi üçün güclü potensialı var.

Xatırladaq ki, yunan-Roma güləşi üzrə böyüklərdən ibarət millimizin son nəticələri Azərbaycanın idman şöhrətini dünyada daha da yüksəldib. Yığmamız son dünya çempionudur. Serbiyada dünya çempionatında 2 qızıl, 3 gümüş medal qazanan komandamız ilk dəfə yarışın qalibi olub. Bu il isə millimiz 3 qızıl, 2 gümüş və 1 bürünc medalla Avropa çempionatlarında ən yaxşı nəticəsinə imza atıb. Bütün bunlar isə bir daha sübut edir ki, Azərbaycanda daha güclü güləşçi nəsli yetişir.

***Leyla QURBANOVA***
***XQ***

# "Bərdə Broyler" ASC-nin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

**(manatla)**

| AKTİVLƏR | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Uzunmüddətli aktivlər | | |
| Torpaq, tikili və avadanlıqlar | 684,534.28 | 713,056.54 |
| | **684,534.28** | **713,056.54** |
| Qısamüddətli aktivlər | | |
| Qısamüddətli debitor borcları | 27708.96 | 36,878.96 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 43102.60 | 9,766.62 |
| Dövlət büdcəsindən vergilər üzrə | 0.15 | 50.04 |
| | **70811.71** | **46,695.62** |
| **CƏMİ AKTİVLƏR** | **755,345.99** | **759,752.16** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **KAPİTAL** | | |
| Ödənilmiş nizamnamə kapitalı | 247,456.00 | 247,456.00 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 115,614.20 | 79,848.91 |
| **CƏMİ KAPİTAL** | **363,070.20** | **327,304.91** |
| **ÖHDƏLİKLƏR** | | |
| Uzunmüddətli öhdəliklər | | |
| Uzunmüddətli borclar | 388,475.47 | 428,475.47 |
| | **388,475.47** | **428,475.47** |
| Qısamüddətli öhdəliklər | | |
| Qısamüddətli kreditor borcları | 457.74 | 427.73 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 3,342.58 | 3,544.05 |
| Digər öhdəliklər | - | - |
| | **3,800.32** | **3,971.78** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **392,275.79** | **432,447.25** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **755,345.99** | **759,752.16** |

**MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT**

| | | |
|---|---|---|
| **GƏLİRLƏR** | **102,508.56** | **102,508.56** |
| **XƏRCLƏR** | | |
| Əmək haqqı | 13,494.30 | 10,822.34 |
| DSMF | 2,652.20 | 2,147.63 |
| İcarə haqqı | 12,800.00 | 12,800.00 |
| Amortizasiya | 28,522.26 | 29,710.69 |
| Audit xərcləri | 1,000.00 | 1,000.00 |
| Bank xidmətləri üzrə xərclər | 350.49 | 312.54 |
| Torpaq vergisi | 6,200.00 | 6,200.00 |
| Sığorta xərcləri | 579.22 | 466.92 |
| Hüquq xidməti | - | - |
| Rabitə xərci | 35.00 | 20.00 |
| Poçt xidməti | 187.00 | 180.00 |
| Notarius xərci | 8.00 | 46.00 |
| Sair cərimə və rüsumlar | - | - |
| Sair xərclər | 780.58 | 699.72 |
| | **66,609.05** | **64,405.84** |
| **MƏNFƏƏT** | **35,899.51** | **38,102.72** |
| Gəlirdən çıxılmayan xərclər | 260.00 | 246.00 |
| **VERGİYƏ CƏLB OLUNAN MƏNFƏƏT** | **36,159.51** | **38,348.72** |
| Mənfəət vergisi | 1,807.98 | 1,917.44 |
| **XALİS MƏNFƏƏT / (ZƏRƏR)** | **34,351.53** | **36,431.29** |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) |
|---|---|---|
| **2023-cü il yanvarın 1-nə qalıq** | **247,456.00** | **79,848.91** |
| Xalis mənfəət / (zərər) | | 35,765.29 |
| **2023-cü il dekabrın 31-nə qalıq** | **247,456.00** | **115,614.20** |
| **2022-ci il yanvarın 1-nə qalıq** | **247,456.00** | **43,661.57** |
| Xalis mənfəət / (zərər) | | 36,187.34 |
| **2022-ci il dekabrın 31-nə qalıq** | **247,456.00** | **79,848.91** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| | | |
|---|---|---|
| Digər gəlirlərdən daxilolmalar | 130,130.00 | 111,790.00 |
| Mallar və xidmətlərə görə xaricolmalar | (39,827.15) | (18,561.73) |
| İşçilərin mükafatlandırılması üzrə ödənişlər | (16,966.87) | (14,533.66) |
| Vergilərə və sair məcburi ödəmələrə görə xaricolmalar | | |
| Digər ödənişlərə görə xaricolmalar | | |
| | **73,335.98** | **78,694.61** |
| ***İNVESTİSİYA FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üzrə pul vəsaitlərinin xaricolmaları | | |
| ***MALİYYƏ FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Borc şəklində alınmış vəsaitlər | (40,000.00) | (80,000.00) |
| Borc şəklində alınmış vəsaitlərin geri ödənilməsi | **(40,000.00)** | **(80,000.00)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **33,335.98** | **(1,305.39)** |
| **Dövrün əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **9,766.62** | **11,072.01** |
| **Dövrün sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **43,102.60** | **9,766.62** |

**MÜSTƏQİL AUDİTORUN RƏYİ**

**Biz, "BƏRDƏ BROYLER" ASC-nin** 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz, maliyyə hesabatlarının auditinə aid etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə hesabat dövrünün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlərə aid ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə rəhbərlik məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq istifadəçilərin təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab olunur.

**"Audit Consulting 17" MMC-nin direktoru**
**Nazim Suxənvər oğlu Cəfərov**
**Bakı, 13 may 2024-cü il**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 108 (30512) 24 may 2024-cü il, cümə

# "Qara kahin"in sirli aləmi



**Rusiya çar ailəsinin ən yaxın məsləhətçisi, "qara kahin" ləqəbli Qriqori Rasputin tarixin ən maraqlı və sirli insanlarından biri kimi tanınır. Onun həyatı və ölümü haqda indiyə qədər də çoxlu versiyalar söylənir.**

Qriqori Yefimoviç Rasputin 21 yanvar 1869-cu ildə Sibirin Pokrovskoye qəsəbəsində kəndli ailəsində doğulub. Rasputinin uşaqlığı haqda tarixdə müfəssəl məlumatlar yoxdur. Lakin təxminlərə əsasən deyə bilərik ki, o, təhsil almayıb və yetkinlik çağlarında belə, təhsilsiz olub. Bundan başqa, bəzi yerli arxiv sənədlərində Rasputinin adı ilk gənclik illərində müxtəlif oğurluq, cinayət hadisələrində qeyd edilir.

Rasputin 1886-cı ildə Abalaka gedir və orada Praskovya Dubrovina adlı qadınla tanış olur. 1897-ci ildə evlənən cütlüyün 7 övladı dünyaya gəlsə də, onlardan yalnız üçü – Dimirti, Mariya və Varvara sağ qalır. Daha sonra Rasputin Pokrovskoyeni tərk edir və Dubrovinadan ayrı düşür. Buna baxmayaraq, Dubrovina ömrünün sonuna kimi Rasputini sevgi ilə xatırlayır.

## Təbib, kahin, ekstrasens

1902–1904-cü illərdə Kazana səfər edən Rasputin psixoloji problemləri olan insanlara yardım etməyə başlayır və tezliklə məşhurlaşır. Getdikcə nüfuzu artan Rasputinin sorağı provaslav din xadimlərinə, oradan da dövlət adamlarına gedib çatır. Bundan sonra "dəli keşiş", "qara kahin" ləqəbli ekstrasens çar ailəsi ilə tanış olaraq sarayın bağbanı kimi işləməyə başlayır.

Daha bir tarixi mənbədə deyilir ki, çar II Nikolay 1906-cı ildə dövlət xadimlərindən birinə Rasputin haqda məktub yazır: "Bir neçə gün bundan öncə Tobolsk vilayətindən bir kəndlini qəbul etdim. O, mənə Müqəddəs Simyonun ikonasını gətirdi. Söhbət zamanı mənə və Aleksandra Fyodorovnaya (çar II Nikolayın həyat yoldaşı) böyük təsir göstərdi və onda fərqli enerji olduğunu duyduq. Nəzərdə tutulan 5 dəqiqə əvəzinə, biz onunla bir saat söhbət etdik".

Zaman keçdikcə çar ailəsinə daha da yaxınlaşan bu sirli insan, ailənin ən yaxın adamına çevrilir və baş məsləhətçi vəzifəsinə qədər yüksəlir. Mənbələrdə göstərilir ki, Rasputin Aleksandra Fyodorovnaya psixoloji yardım göstərir, eyni zamanda, vəliəhd Alekseyin hemofiliya xəstəliyini müalicə edir.

Həkimlərin müxtəlif müalicəsi sayəsində sağala bilməyən çar ailəsinin tək vəliəhdi Rasputinin köməyi ilə sağalır və bu magiya sahibi mövqeyini sarayda daha da möhkəmləndirir.

## Mistik güc, yoxsa insani zəka?

Rasputinin I Dünya müharibəsi illərindən başlayaraq, dövlət işlərinə müdaxiləsi də iddialar arasındadır. O, artıq qeyri-adi gücü olan peyğəmbər kimi tanınmağa başlayır. Buna görə də ona aileyə yaxın olmaq tapşırılır. Rasputinin çar üzərində təsiri getdikcə artmağa başlayır. O, siyasi məsələlərdə də II Nikolayı yönləndirməyə başlayır, hipnoz vasitəsilə danışdığı hər kəsi öz təsiri altına salır.

Çarın həyat yoldaşının isə ona özəl bir heyranlığı var idi. Sarayda qaldığı müddətdə Rasputinin çar ailəsi ilə münasibətlərinin həddindən artıq səmimi olması, çarın xanımı ilə şəxsi münasibətlərinin yaranması ilə bağlı dedi-qodular yaxın ətrafı çox narahat edirdi. Ən əsası, ekstrasensin çarın üzərindəki böyük təsiri saray əyanları üçün heç də xoş deyildi. Ailə ilə qan bağlılığı olmayan birisinin bağbanın onlarla bu qədər yaxın olması olduqca absurd idi. Bir falçının sarayda bu qədər nüfuza malik olması, üstəlik, adlı-sanlı məmurların qadınları ilə sevgi münasibəti qurması bardağı daşıran son damla olur.

Saray ətrafında yayılan söz-söhbətlər və narahatlıqlar getdikcə artırdı. Ortadoks kilsəsi də özünə peyğəmbər deyən Rasputinin mömin deyil, dindən öz istəkləri üçün istifadə edən bir şeytan olduğunu iddia edirdi.

Hər bir hərəkəti olay olmağa başlayan qara kahin hətta qəzetlərdə belə, hər gün elə salınaraq, müzakirə mövzusuna çevrilir. Onun sözü ilə oturub-durması ətrafının çara olan etimadını getdikcə azaldırdı.

Bütün bunlar baş verən tarixdə artıq I Dünya müharibəsi başlamışdı. Savaşa qarşı olan Rasputin, bunu Rusiya üçün böyük bir fəlakət olaraq görürdü. O, bu arada özünə vəhy gəldiyini və ordunun başına çarın özü keçməzsə, savaşı uduzacaqlarını iddia etməyə başlamışdı. Çar Rasputinin sözlərinə etimad edib, onun dediklərini eynilə yerinə yetirdi.

Lakin bunun sonu fəlakətlə nəticələndi. Çarın başçılıq etdiyi ordu döyüşdə məğlub oldu. II Nikolayın sarayda yoxluğundan isrifadə edən Rasputin Aleksandra Fyodorovna üzərindəki təsirini daha da artıraraq, onun baş məsləhətçisi oldu. O, artıq hökumətin kadrlarını özü seçir, qazandığı etibar nəticəsində istədiyi adama vəzifə verdirirdi.

## Müəmmalı sui-qəsd

Saray xanədanının və digər siyasilərin Rasputindən duyduqları narahatlıq son həddə çatır. Onlar artıq bu adamdan qurtulmağın zamanının gəldiyini düşünərək, sui-qəsdə əl atırlar.

1916-cı ilin 29 dekabr gecəsi knyaz Yusupov Rasputini içki içməyə dəvət edir. Əlbəttə, o, içkisinə sianid maddəsi (zəhər) qatıldığından xəbərsiz idi. Lakin zəhərli şərabı başına çəkən Rasputinin halında heç bir dəyişiklik olmur. Sən demə, qara kahin vaxtaşırı kiçik dozalı zəhər qəbul edərək bədənində zəhərə qarşı immunitet yaradıbmış.

Zəhərin kahinə təsir etmədiyini görən knyaz Yusupov ona tapançadan ardıcıl atəş açır. Rasputinin yerə yıxıldığını görən Yusupov artıq onun öldüyünü zənn edir. Lakin o, ayağa qalxır və knyazın qulağına nə isə pıçıldayıb qaçmağa başlayır. Knyazın adamları onun arxasınca düşərək ardıcıl atəş açırlar. Nəhayət, sirli maq dizlərini yerə qoyaraq üzü üstə yıxılır.

Knyaz və adamları cinayətin izini itirmək üçün Rasputinin cəsədini Neva çayının buzlu sularına atırlar. Ertəsi gün cəsədin sudan çıxarıldığı zaman onun suya buraxılarkən hələ ölmədiyi, boğulmazdan əvvəl xeyli əl-qol atdığı aşkar olunur.

Ehtimallara görə, Rasputin öz ölümünü və qatillərinin taleyini öncədən söyləyibmiş.

*Murad KÖHNƏQALA,*
*şair-publisist*

---

İDMAN

# Bir cüdoçumuz da dünya çempionu oldu




**Azərbaycanın daha bir cüdoçusu Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən dünya çempionatında qızıl medal qazanıb.**

100 kiloqram çəki dərəcəsində mübarizə aparan Zelim Kotsoyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 25 yaşlı idmançı finalda kanadalı Şeydi Əl-Nahasla üz-üzə gəlib və rəqibini məğlub edib.

# Gimnastlarımız bürünc medal qazanıblar



**Azərbaycanın bədii gimnastları Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən Avropa çempionatına uğurla start veriblər.**

Gənc fərdi gimnastlar –Gövhər İbrahimova (halqa, 30,050), Şəms Ağahüseynova (lent, 29,000), İlahə Bahadirova (top, 29,850) və Fidan Qurbanlı (gürzlər, 28,500) komanda hesabında, ümumilikdə, 117,400 xalla bürünc mükafata layiq görülüblər.

Qeyd edək ki, bədii gimnastika üzrə Avropa çempionatı Paris Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır. Yarışa mayın 26-da yekun vurulacaq.

# Anna Skidanın 2-ci qızılı

**Norveçin Bergen şəhərində Dünya Atletikasının gümüş səviyyəli yarışı olan Trond Mohn Oyunları keçirilir.**



Ölkəmizi çəkic atma yarışında təmsil edən Anna Skidan növbəti dəfə uğurlu çıxışla yadda qalıb. Atletimiz 72.47 metr göstərici ilə bütün rəqiblərini qabaqlayaraq qızıl medal qazanıb.

Xatırladaq ki, Skidan bir neçə gün öncə Dünya Atletikasının gümüş səviyyəli yarışı olan Yanuş Kusoçinskinin Memorialında da fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdı.

# Şahmatçımız beynəlxalq turnirin qalibidir



**Birləşmiş Ərəb Əmirliklərinin Şarja şəhərində təşkil edilən şahmat üzrə "Masters" yarışı başa çatıb.**

Turnirdə təmsilçilərimizdən ən yaxşı nəticə Aydın Süleymanlıya məxsus olub. Şahmatçı 9 turda 6 xal toplamaqla turniri 10-cu yerdə başa vurub.

Festivalın "Futures" turnirində 1-ci yerə Aqşin Əlizadə layiq görülüb. Yekunda 7,5 xal toplayan Azərbaycan təmsilçisi əlavə göstəricilərə görə, bütün rəqiblərini qabaqlayıb. Aktivində 7 xalı olan digər şahmatçımız Yunis Mahmudzadə isə 3-cü yeri tutub.

*L.QURBANOVA*
*XQ*

---

Sağlamlıq

# Soğan – azarı boğan



**Yeməklərin yanında çiy soğan yemək vərdişi orqanizmi bir çox xəstəlikdən qoruya bilər. Mütəxəssislər bildirirlər ki, soğanı çiy qəbul etmək sağlamlıq üçün çox faydalıdır. "İtirilmiş şəfa axtarışında" kitabının müəllifi, türkiyəli dietoloq Aydın Salih soğan tərkibli 3 resept hazırlayıb.**

Həkim bildirir ki, bu reseptlər daxili orqanları toksinlərdən təmizləyir. Xüsusilə, diabet xəstələri üçün faydalıdır.

**1-ci resept:** Hər axşam bir soğanın suyunu sıxıb acqarına içmək lazımdır. Su ilə qarışdırmaq olar. Bundan əlavə, xörəklərlə birgə çiy soğan yemək lazımdır. Bu, insulinə ehtiyacı azaldacaq.

**2-ci resept:** Orta ölçüdə soğanın şirəsini 150–200 qram ağ kələm, brokoli və ya yerkökü şirəsi ilə qarışdırıb qurtum-qurtum için.

**3-cü resept:** Soğan suyunu 150–200 qram qırmızı çuğundur suyu ilə qarışdırıb için.

Həkim soğanın digər faydalarını da açıqlayıb. Deyib ki, çiy soğan daxili orqanları təmizləyir, bağırsaqları aktivləşdirir, osteoporoza qarşı faydalıdır, dərini gözəlləşdirir, saçları daha sürətli böyüdür. Eyni zamanda, iltihabı azaldır, xolesterolu aşağı salır və immuniteti gücləndirir.

*Z.HÜSEYNLİ*
*XQ*

---

Hava

# Abşeronda yağmursuz, bölgələrdə yağış və duman...



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 24-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var.***

Şimal-şərq küləyi əsəcək, axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 13-17°, gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz olacaq. Azərbaycanın rayonlarında şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 18-23°, dağlarda gecə 3-8°, gündüz 10-15° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

---

# Everestin qadın rekordçusu

**Nepallı alpinist qadın Pxundjo Djxanqmu Lama Everest zirvəsini ən sürətlə fəth edən qadın olaraq dünya rekordu vurub. Bu barədə "The Himalayan Times.com" saytı məlumat yayıb.**



Xəbərdə qeyd olunur ki, nepallı xanım arzusuna çatmaq üçün cəmi 14 saat 31 dəqiqə sərf edib. Alpinist mayın 22-də saat 15:52-də zirvəyə qalxmağa başlayıb və ertəsi gün saat 06:23-də hədəfinə nail olub.

Yeni rekorda imza atan alpinist qadın öz hisslərini bu cür ifadə edib: "Mən zirvəyə qalxmağımı qadınların hüquq və səlahiyyətlərinin artırılmasına, ətraf mühitin qorunmasına, eləcə də dünyada sülhə həsr etmək istəyirəm".

Qeyd edək ki, xanım Lama bundan əvvəl də bir neçə dəfə Everestə qalxmağa cəhd edib. O, 2018-ci ildə zirvəni 39 saat 6 dəqiqəyə fəth edib.

Sonda bildirək ki, nepallı alpinist bundan əvvəl dünyanın bir çox başqa zirvələrinə yüksələ bilibdir.

*FİDAN*
*XQ*

---

*✓ 2023-cü ildə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən Seyidnurov Elgün Rüstəm oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

---

**ALLAH RƏHMƏT ELƏSİN**

Azərbaycan Jurnalistlər Birliyinin Məclisi tanınmış alim, publisist, tərcüməçi, BDU-nun professoru

**RAMİZ ƏSKƏRİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3969
SİFARİŞ 1127
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00